# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

15 sentyabr 2026-cı il, çərşənbə axşamı
№ 166 (7233)
Qiymət 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# Azərbaycanın innovasiya ekosisteminin rəqabət qabiliyyətinin daha da möhkəmlənməsinə töhfə

## Prezident İlham Əliyev "SABAH.city" innovasiya şəhərciyinin birinci mərhələsinin açılışında iştirak edib




Bax səh. 2

# Azad rəqabəti gücləndirəcək yeni strategiya

Bax səh. 3



Bax səh. 4

## Qarabağa qürur səfəri



Bax səh. 3

## Bakı azadlığına qovuşdu

## TDT-nin dini idarə rəhbərlərinin VII görüşü...

### Görüşdə Bakı Bəyannaməsi qəbul edilib

Bax səh. 2

## Şəkillərdən kənarda Lənkəran: İlk cənub şəhərində

Bax səh. 7



# Yəməndə vəziyyət qarışdı

Bax səh. 7

# Azərbaycanın innovasiya ekosisteminin rəqabət qabiliyyətinin daha da möhkəmlənməsinə töhfə








## Prezident İlham Əliyev "SABAH.city" innovasiya şəhərciyinin birinci mərhələsinin açılışında iştirak edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Bakıda Elm və Təhsil Nazirliyinin Yüksək Texnologiyalar Parkında qurulan "SABAH.city" innovasiya şəhərciyinin birinci mərhələsinin açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına "SABAH.city" innovasiya şəhərciyi barədə məlumat verdi.

Bildirildi ki, layihə ümumilikdə 20 hektarda icra olunacaq. Birinci mərhələ 5 hektardan çox ərazini və ümumilikdə 20 min kvadratmetr tikili sahəni əhatə edir. Burada tikinti işlərinə ötən ilin oktyabrında başlanılıb və bir-biri ilə əlaqələndirilmiş 4 korpusdan ibarət kompleks inşa olunub. Şəhərcikdə 5 restoran, market və tədbirlər zalı, həmçinin açıq idman infrastrukturu - basketbol, futbol meydançaları və 2 padel kortu yaradılıb, açıq havada istirahət zonaları, piyada və velosiped zolaqları, parklanma sahələri təşkil edilib.

Şəhərcikdə Bakı Dövlət Universitetinin, Azərbaycan Texniki Universitetinin, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin mühəndislik, informasiya texnologiyaları, tətbiqi elmlər istiqamətlərində təhsil alan 1500-dən çox tələbəsinin tədrisə və praktiki fəaliyyətə cəlb edilməsi nəzərdə tutulur. Şəhərciyin tam fəaliyyətə başlaması ilə isə gündəlik ziyarətçi sayının təxminən 3 min nəfər olacağı gözlənilir.

Burada ASAN Süni İntellekt Mərkəzi (ASAN AI Hub) də yaradılıb. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev Prezident İlham Əliyevə ASAN Süni İntellekt Mərkəzi, "INNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzi, həmçinin "ASAN xidmət"in "Süni İntellekt Assistent" layihəsi barədə məlumat verdi.

ASAN Süni İntellekt Mərkəzi Azərbaycanda süni intellekt sahəsində innovativ təşəbbüsləri dəstəkləmək, tədqiqatçıları, dövlət qurumlarını, özəl sektoru və fərdi istifadəçiləri vahid rəqəmsal platformada (www.asanhub.ai) bir araya gətirmək, açıq innovasiya modelini təşviq etməklə dövlət, biznes və təhsil müəssisələri arasında əməkdaşlığın gücləndirilməsi məqsədilə yaradılıb. Bu günədək ümumilikdə 50 süni intellekt həlli təqdim olunub. ASAN Süni İntellekt Mərkəzi ölkədə fəaliyyət göstərən 8 universitet, Azərbaycan Milli Elmlər Akademiyası, bir sıra nüfuzlu xarici universitetlər (Sinxua Universiteti (Çin), Oksford Universiteti (Birləşmiş Krallıq) və Boğaziçi Universiteti (Türkiyə), eyni zamanda, digər beynəlxalq nüfuzlu tərəfdaşlarla əməkdaşlıq əlaqələri qurub.

"ASAN xidmət"in "INNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzindən bu günədək 150 startap yararlanıb, 4 startap xarici investorlar tərəfindən satın alınıb.

"Süni İntellekt Assistent" platforması "ASAN xidmət"in müxtəlif fəaliyyət istiqamətləri barədə məlumatı sürətli, sadə və adi söhbət formatında əldə etmək, təhlil və proqnozlaşdırmaq imkanı yaradır.

"SABAH.city" innovasiya şəhərciyində Bakı Dövlət Universiteti, Azərbaycan Texniki Universiteti və Azərbaycan Dövlət Neft və Sənaye Universiteti tərəfindən yaradılan ümumilikdə 13 tədris və tədqiqat laboratoriyası var. Laboratoriyalarda süni intellekt, robototexnika, kompüter elmləri, kibertəhlükəsizlik, biotexnologiya, nanobiologiya, nanofizika, kimya, telekommunikasiya və digər prioritet elmi-texnoloji istiqamətlər üzrə tədqiqat və tətbiqi fəaliyyətlərin həyata keçirilməsi nəzərdə tutulur.

Burada, eyni zamanda, 12 startapın yer aldığı "kovorkinq" (insanların və şirkətlərin işləməsi üçün nəzərdə tutulmuş ortaq iş məkanı) zonası, yerli və beynəlxalq texnologiya şirkətləri, korporativ tədqiqat və inkişaf mərkəzləri, həmçinin innovasiya ekosisteminin digər iştirakçıları üçün 22 ofis sahəsi var.

Layihənin birinci mərhələsinə 3 ali təhsil müəssisəsi ilə yanaşı, 8 texnologiya və innovasiyayönümlü şirkət, 12 startap olmaqla ümumilikdə 23 əsas ekosistem iştirakçısı cəlb edilib.

Qeyd edək ki, layihənin icrasında əsas məqsəd ölkəmizin innovasiya, elm, təhsil və yüksək texnologiyalar ekosisteminin əsas iştirakçılarını vahid məkanda bir araya gətirməklə onların qarşılıqlı fəaliyyətini gücləndirən innovasiya mühitinin formalaşdırılmasıdır. "SABAH.city" bilik və texnologiyanın iqtisadi və sosial dəyərə çevrilməsini dəstəkləyən kompleks innovasiya platforması kimi mühüm rol oynamaqla uzunmüddətli perspektivdə insan kapitalının, tətbiqi elmin, texnologiya transferinin və Azərbaycanın innovasiya ekosisteminin rəqabət qabiliyyətinin daha da möhkəmlənməsinə töhfə verəcək.

## Prezident İlham Əliyev Müsəlman Ağsaqqalları Şurasının baş katibini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalamı qəbul edib.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Prezident İlham Əliyev ilə Məhəmməd Əbdülsalamın əvvəlki görüşləri məmnunluqla xatırlandı.

Ölkəmizlə Müsəlman Ağsaqqalları Şurası arasında həyata keçirilən uğurlu əməkdaşlıq qeyd olundu. Eyni zamanda, İslam həmrəyliyinin möhkəmləndirilməsi istiqamətində Azərbaycanın qlobal səviyyədə oynadığı vacib rola toxunuldu, bu xüsusda Türk Dövlətləri Təşkilatının Müsəlman dini liderlərinin Bakıda keçirilən 7-ci görüşünün, həmçinin gələn il Azərbaycanda təşkil olunacaq İslam Əməkdaşlıq Təşkilatının Zirvə Toplantısının əhəmiyyəti vurğulandı. Ölkəmizdə dini münasibətlərin yüksək səviyyədə tənzimləndiyi qeyd edildi.

Söhbət zamanı Azərbaycan Prezidentinin bu ilin əvvəlində "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görüldüyü xatırlandı. Qonaq bu mükafatın sertifikatını dövlətimizin başçısına təqdim etdi.

## "Zayed İnsan Qardaşlığı Mükafatı"nın sertifikatı dövlətimizin başçısına təqdim edilib



Prezidentin Mətbuat Xidmətinin məlumatına görə, sentyabrın 14-də Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalam Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüş zamanı "Zayed İnsan Qardaşlığı Mükafatı"nın sertifikatını dövlətimizin başçısına təqdim edib.

Qeyd edək ki, Prezident İlham Əliyev Azərbaycanla Ermənistan arasında sülhün əldə edilməsi ilə bağlı göstərdiyi səylərə görə 2026-cı il üzrə bu mükafata layiq görülüb.

Mükafatın şərtlərinə görə, Azərbaycan Prezidentinə 500 min ABŞ dolları məbləğində vəsait verilir.

Prezident İlham Əliyev bu məbləğin tam olaraq Qarabağ Dirçəliş Fonduna köçürülməsi ilə bağlı qərar qəbul edib.

## Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin milli təhlükəsizlik müşavirini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Əbu-Dabi Əmirliyi hakiminin müavini, milli təhlükəsizlik müşaviri Şeyx Tahnun bin Zayed Al Nəhyanı qəbul edib.

AZƏRTAC xəbər verir ki, qonaq ilk növbədə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Şeyx Məhəmməd bin Zayed Al Nəhyana çatdırmağı xahiş etdi.

Söhbət zamanı ölkələrimiz arasında strateji tərəfdaşlıq əlaqələrinin uğurla inkişaf etdiyi bildirildi, ikitərəfli əməkdaşlığın müxtəlif istiqamətlərdə genişlənməsindən məmnunluq ifadə olundu.

Münasibətlərimizin möhkəmlənməsində Azərbaycan və BƏƏ prezidentlərinin şəxsi dostluq əlaqələri, dövlət başçılarının qarşılıqlı səfərləri və görüşlərinin mühüm rol oynadığı vurğulandı.

Əməkdaşlıqla bağlı məsələlərin müzakirəsi baxımından Birləşmiş Ərəb Əmirliklərindən böyük nümayəndə heyətinin ölkəmizə səfərinin əhəmiyyətinə toxunuldu.



Sonra Prezident İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin milli təhlükəsizlik müşaviri Şeyx Tahnun bin Zayed Al Nəhyanın iştirakı ilə sənədlərin imzalanması mərasimi oldu.

Mərasimdə "Azərbaycanda bərpaolunan enerji layihələrinin işlənib hazırlanması məqsədilə "Abu Dhabi Future Energy Company" - "Masdar" və "AGEC" arasında əməkdaşlıq Sazişi", "Azərbaycan İnvestisiya Holdinqi ilə "L'IMAD HOLDING COMPANY PJSC" arasında strateji əməkdaşlıq Sazişi", "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti ilə "Terra Mining Ltd" arasında "Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ərazisində mineral-xammal potensialının və mədən sahələrinin birgə qiymətləndirilməsi və kəşfiyyatı haqqında Saziş", Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi və "GROUP 42 Holding Ltd" arasında "Azərbaycan Respublikasında Data Mərkəzinin, Yüksək Performanslı Hesablama və Süni İntellekt İnfrastrukturunun inkişafı üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu", Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi (Azərbaycan Respublikasının adından çıxış edən) və "XRG SGC LIMITED" arasında "Cənub Qaz Dəhlizi" Qapalı Səhmdar Cəmiyyəti ilə bağlı Səhmdarlar Müqaviləsi", həmçinin Energetika Nazirliyi, SOCAR və "Masdar" arasında "Neftçala 315 mvt Günəş fotovoltaik layihəsi üzrə maliyyə bağlanışının baş tutmasının təsdiqi" sənədi imzalandı.

# TDT-nin dini idarə rəhbərlərinin VII görüşü...

## Görüşdə Bakı Bəyannaməsi qəbul edilib

Qloballaşan dünyada türk dövlətlərinin və xalqlarının birliyi zərurətə çevrilib. Türk dövlətləri arasında  siyasi, iqtisadi, mədəni, o cümlədən hərbi sahələrdə əməkdaşlığın gücləndirilməsi istiqamətində qəbul olunan qərarlar türk birliyinin qlobal gücə çevrilməsi yolunda atılan addımlardır. Türk Dövlətləri Təşkilatının (TDT) yaradılması türk dünyasının birliyinin gücləndirilməsi istiqamətində tarixi addımdır. Artıq hər il TDT-nin zirvə toplantıları çərçivəsində, eləcə də ikitərəfli münasibətlər kontekstində türk dövlətlərinin münasibətlərinin gücləndirilməsi üçün sistemli tədbirlər həyata keçirilir. Son illər TDT-nin sammitlərində qəbul olunan qərarlar artıq türk dünyasını dünyaya qlobal güc kimi təqdim edir. Nəzərə alaq ki, TDT müstəvisində təkcə Zirvə görüşləri keçirilmir, türk dövlətlərinin müvafiq dövlət qurumlarının, strukturların təşkilatlanmış platformaları da yaradılıb və onların da vaxtaşırı toplantları keçirilir. Təqdirəlayiq haldır ki, bu prosesdə Azərbaycan çox fəal iştirak edir.

**Tədbirdə 40 ölkə və 15 beynəlxalq təşkilatın nümayəndələri iştirak edib**

Sentyabrın 14-də Bakıda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin müsəlman dini idarə rəhbərlərinin VII görüşünün  keçirilməsi də bunun göstəricisidir. Ümumilikdə tədbirə 40 ölkəni və 15 beynəlxalq təşkilatı təmsil edən dövlət, elm və din xadimləri qatılıblar. Tədbirin açılışında Dövlət Himni səsləndirilib, "Qurani-Kərim" tilavət olunub. Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri, Şeyxülislam Allahşükür Paşazadə çıxış edərək TDT-nin müsəlman dini liderləri arasında birgə əməkdaşlığın və mütəmadi məşvərətlərin türk-islam birliyinin möhkəmlənməsinə mühüm töhfə verdiyini bildirib. O, dövlət başçılarının müdrik siyasəti nəticəsində dini-mənəvi dəyərlərə xüsusi diqqət və qayğı göstərildiyini vurğulayıb.

TDT-nin Baş katibi Kubanıçbek Ömüralıyev təşkilatın türk xalqları arasında birlik, həmrəylik və əməkdaşlığın gücləndirilməsini, ortaq tarix və dəyərlər əsasında ümumi gələcəyin qurulmasını əsas məqsədlərindən biri kimi qeyd edib.

Qazaxıstan Müsəlmanları Ruhani İdarəsinin sədri Naurızbay Taqanulı ailənin insan həyatında mühüm rolundan danışaraq onun şəxsiyyətin formalaşdığı müqəddəs məkan olduğunu bildirib.

Türkiyə Diyanət İşləri İdarəsinin sədri Safi Arpaquş dini idarə rəhbərlərinin görüşlərini TDT-nin siyasi və iqtisadi əməkdaşlıqla yanaşı, sosial, mədəni və mənəvi istiqamətlərdə də inkişafını təmin edən mühüm məsləhətləşmə platforması kimi qiymətləndirib.

Özbəkistan Müsəlmanları İdarəsinin sədri, müfti Nuriddin Xoliknazarov TDT-nin qlobal arenada nüfuzunun artdığını, üzv ölkələr arasında qardaşlıq münasibətləri və sıx



əməkdaşlığın möhkəmləndiyini diqqətə çatdırıb.

Qırğızıstan Müsəlmanları İdarəsinin sədri, müfti Əbdüləziz Zakirov isə elm, əxlaq və texnologiyanın inkişafında müsəlman dünyasının tarixi töhfələrindən bəhs edib.

Türkmənistan Müsəlmanları Ruhani İdarəsinin yeni seçilmiş sədri, müfti Rahman Qurbanmuradov türk xalqlarının dini rəhbərləri arasında əlaqə və əməkdaşlığın gücləndirilməsinin, mövcud məsələlərin birgə həllinin vacibliyini vurğulayıb.

Şimali Kipr Dini İşlər sədri Hakan Moral isə İslam dünyasında yaşanan ağrı və haqsızlıqların aradan qaldırılması üçün müsəlmanların birlik və həmrəyliyinin gücləndirilməsinin zəruriliyini qeyd edib.

**Prezident İlham Əliyevə müraciət qəbul olunub**

Görüşdə TDT müsəlman dini idarə rəhbərləri Şurasının Bakı Bəyannaməsi qəbul olunub. Bəyannamədə türk dövlətləri və xalqları arasında həmrəyliyin gücləndirilməsi, Türk-İslam mənəvi və mədəni dəyərlərinin təşviqi, dini təhsil və elmi əməkdaşlığın inkişaf etdirilməsi, gənclərin maarifləndirilməsi ilə bağlı bir sıra mühüm müddəalar əksini tapıb. Sənəddə terrorizm, ekstremizm, separatizm, islamofobiya, türkofobiya, məzhəblərarası ayrı-seçkilik və nifrət çağırışlarına qarşı birgə mübarizənin davam etdiriləcəyi bildirilib. Qadın və uşaq hüquqlarının müdafiəsi, dini ədəbiyyatın tərcüməsi, ortaq fətvaların hazırlanması və Türk dünyasının tarixi irsinin təbliği də prioritet istiqamətlər kimi qeyd olunub.

Həmçinin Şura üzvləri və müşahidəçi ölkələrin dini liderlərinin Prezident İlham Əliyevə müraciəti qəbul edilib. Müraciətdə TDT müsəlman dini idarə rəhbərləri Şurasının Bakıda keçirilən 7-ci görüşünün, eləcə də görkəmli azərbaycanlı alim-mütəfəkkir Şeyx Seyyid Yəhya Bakuviyə həsr olunmuş Birinci Beynəlxalq elmi-praktiki Konfransın yüksək səviyyədə təşkilinə göstərilən diqqət və himayəyə görə Prezident İlham Əliyevə dərin minnətdarlıq ifadə olunub.

Dini liderlər Azərbaycanın multikulturalizm və tolerantlıq modelini, məzhəblərarası anlaşma və sivilizasiyalararası əməkdaşlığın təşviqində rolunu yüksək qiymətləndiriblər. Müraciətdə Prezident İlham Əliyevin dinlər və mədəniyyətlərarası dialoqun inkişafına yönəlmiş təşəbbüslərinin xüsusi əhəmiyyət daşıdığı vurğulanıb. TDT müsəlman dini idarə rəhbərləri Şurasının üzvləri Azərbaycanın əldə etdiyi uğurları, Qarabağda aparılan bərpa və quruculuq işlərini, Böyük Qayıdış prosesini və Türk dünyası ölkələri ilə mənəvi həmrəyliyin gücləndirilməsini də yüksək dəyərləndiriblər. Müraciətin sonunda Prezident İlham Əliyevə Azərbaycanın beynəlxalq müstəvidə daha böyük uğurlara imza atması istiqamətində fəaliyyətində uğurlar arzulanıb.

**VIII görüş Türkiyədə keçiriləcək**

Tədbirdə TDT Katibliyinin nümayəndəsi Harun Nurullah Tanzi Şuranın Fətva Komitəsinin işçi qrupunun iclasının nəticələri barədə məruzə edib. Görüşdə "İslamın elm və texnologiyaya yanaşması", "Nikahın təşviqi, ailənin qorunması və möhkəmləndirilməsinə görə ortaq məsuliyyət" və "Müsəlman olması məlum olan şəxsi kafir elan etmənin hökmü" mövzularında razılaşdırılmış fətvalar qəbul edilərək Şura üzvləri tərəfindən imzalanıb.

Sonda Şeyxülislam Allahşükür Paşazadə Azərbaycan Prezidenti İlham Əliyevə tədbirin yüksək səviyyədə keçirilməsinə göstərdiyi diqqət və dəstəyə görə minnətdarlığını bildirib. TDT-yə üzv və müşahidəçi ölkələrin dövlət başçılarına, eləcə də TDT Katibliyinə və Fətva Komitəsinin üzvlərinə təşəkkür ifadə olunub. Bildirilib ki, Şuranın növbəti, VIII görüşü Türkiyədə keçiriləcək. Şeyxülislam Allahşükür Paşazadə sədrliyi Türkiyə Diyanət İşləri İdarəsinin sədri Safi Arpaquşa təhvil verib.

*Nardar BAYRAMLI*

# Azad rəqabəti gücləndirəcək yeni strategiya

## Milli Fəaliyyət Planı inhisarçılığı aradan qaldırmaq, biznes və investisiya imkanlarını genişləndirmək, həmçinin digər prioritetləri əks etdirir

Prezident İlham Əliyevin imzaladığı müvafiq Sərəncama əsasən "Rəqabətin inkişafına və inhisarçılıq fəaliyyətinin qarşısının alınmasına dair 2027-2029-cu illər üzrə Milli Fəaliyyət Planı" təsdiq edilib. Sənəd qlobal iqtisadi münasibətlərin sürətlə dəyişdiyi şəraitdə biznes və investisiya imkanlarının genişləndirilməsi, eləcə də milli iqtisadiyyatın dayanıqlı inkişafının təmin edilməsi prioritetləri nəzərə alınmaqla hazırlanıb. Milli Fəaliyyət Planı iqtisadiyyatda sağlam rəqabət prinsiplərinin təşviqinə, bazar münasibətlərinin səmərəliliyinin yüksəldilməsinə, eləcə də bu sahədə mövcud institusional və təşkilati çərçivənin təkmilləşdirilməsinə yönəlib və ayrı-ayrı məhsul bazarlarında rəqabət mühitinin öyrənilməsi, tənzimləmə alətlərinin təkmilləşdirilməsi, aidiyyəti dövlət orqanları arasında səmərəli əlaqələndirmənin təmin olunması və müvafiq institusional potensialın artırılması əsas istiqamətlər kimi müəyyən edilib.



### Dünya ölkələrinin rəqəmsal bazar platformalarına keçid

Müasir dövrdə rəqabət siyasəti dayanıqlı iqtisadi artımın, sahibkarlıq və investisiya fəallığının, innovasiyaların və məhsuldarlığın artırılmasının mühüm vasitələrindən birinə çevrilib. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin, o cümlədən Avropa İttifaqına, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına və Müstəqil Dövlətlər Birliyinə üzv dövlətlərin, habelə Ümumdünya Ticarət Təşkilatı və BMT-nin Ticarət və İnkişaf üzrə Konfransı kimi beynəlxalq təşkilatların əlverişli rəqabət mühitinin formalaşdırılması sahəsində təcrübəsi xüsusi aktuallıq daşıyır. Həmin dövlətlərdə tətbiq edilən müasir yanaşmalar mövcud və yeni tənzimləmələrin bazar iştirakçılarının sayına, fəaliyyət imkanlarına, rəqabət motivasiyasına və istehlakçı seçiminə təsirinin sistemli təhlilini nəzərdə tutur. Aİ, ABŞ və Böyük Britaniyanın təcrübəsində rəqəmsal platformaların fəaliyyəti, məlumatlara çıxış, qiymətqoyma alqoritmləri və süni intellektin bazar rəqabətinə təsiri xüsusi diqqət mərkəzindədir. Aİ-nin "Rəqəmsal Bazarlar Aktı" əsas rəqəmsal platformalar üçün konkret tələblər müəyyən etməklə bazar iştirakçıları üçün bərabər fəaliyyət imkanlarının yaradılmasına və innovativ şirkətlərin bazara çıxışının asanlaşdırılmasına yönəldilib. Yaxın region ölkələrindən Türkiyə, Gürcüstan, Qazaxıstan və Özbəkistanda məhsul bazarlarının diaqnostikası, iqtisadi təmərküzləşmələrin və dövlət satınalmalarında rəqabət səviyyəsinin qiymətləndirilməsi, eləcə də rəqabət orqanlarının analitik potensialının artırılması istiqamətində tədbirlər həyata keçirilir.

Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan və Qırğızıstanın iştirakı ilə yaradılmış Türk Dövlətləri Rəqabət Şurası isə üzv ölkələrin rəqabət orqanları arasında məlumat və təcrübə mübadiləsinə, institusional əlaqələrin inkişafına və birgə təşəbbüslərin həyata keçirilməsinə xidmət edən regional əməkdaşlıq platformasıdır. Beləliklə, qabaqlayıcı qiymətləndirmə, rəqəmsal bazarların tənzimlənməsi, süni intellekt və məlumat əsaslı təhlil, dövlət satınalmalarında rəqabətin təşviqi, yaşıl iqtisadiyyata keçid və regional əməkdaşlıq müasir rəqabət siyasətinin əsas qlobal istiqamətlərini təşkil edir.  2003-cü ildən başlayaraq rəqabət siyasəti iqtisadiyyatın şaxələndirilməsi, özəl sektorun inkişafı və investisiya mühitinin yaxşılaşdırılması prioritetlərinə uyğun olaraq yeni mərhələyə keçib ki, bu da rəqabət mühitinin institusionallığı üçün mühüm əhəmiyyət kəsb edir.

### Satınalma proseslərinin rəqəmsallaşdırılması

Müasir iqtisadi mərhələdə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" və "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" sənədlərindən irəli gələrək rəqabətqabiliyyətli iqtisadiyyatın və əlverişli biznes mühitinin inkişafı üçün strateji çərçivə yaradılıb. Rəqabət siyasətinin hüquqi bazasının müasirləşdirilməsi istiqamətində atılan mühüm addımlardan biri kimi  "Dövlət satınalmaları haqqında" qanunun qəbulu dövlət vəsaitlərindən səmərəli istifadə, satınalma proseslərinin rəqəmsallaşdırılması, şəffaflığın və sahibkarların iştirak imkanlarının artırılması üçün yeni imkanlar yaradıb.

Bir neçə il əvvəl qəbul edilən Rəqabət Məcəlləsi isə sağlam rəqabət prinsiplərinin qorunması, müvafiq məhsul bazarlarının müəyyənləşdirilməsi, sazişlərin və iqtisadi təmərküzləşmələrin rəqabətə təsirinin qiymətləndirilməsi, təbii inhisar sahələrinin tənzimlənməsi və rəqabət qanunvericiliyinə əməl olunmasına nəzarət üzrə müasir hüquqi çərçivə formalaşdırıb. Nəticədə rəqabət siyasətinin institusional əsasları gücləndirilib, bu sahədə dövlət siyasətinin və tənzimləmənin əlaqələndirilmiş şəkildə həyata keçirilməsi, məhsul bazarlarının sistemli təhlili və müasir nəzarət vasitələrinin tətbiqi üçün müvafiq idarəetmə çərçivəsi formalaşdırılıb.

### Dövlət-özəl sektor əməkdaşlığı genişləndiriləcək

Rəqabət siyasətinin inkişafının növbəti mərhələsində rəqabətli neytrallıq prinsiplərinin tətbiqinin genişləndirilməsi, sahibkarların mühüm infrastruktura və resurslara çıxış imkanlarının artırılması, məhsul bazarlarında rəqabət səviyyəsinin müntəzəm qiymətləndirilməsi, dövlət satınalmalarında iştirak dairəsinin genişləndirilməsi, rəqabət mədəniyyətinin təşviqi, eləcə də elmi və məlumat əsaslı təhlil imkanlarının gücləndirilməsi prioritet istiqamətlər kimi çıxış edir. Bu baxımdan yeni təsdiq edilən Milli Fəaliyyət Planı həmin hədəf göstəricilərə çatmaq üçün mühüm prioritetləri özündə əks etdirir. Fəaliyyət Planı çərçivəsində azad rəqabət mühitini gücləndirmək, inhisarçılıq fəaliyyətini aradan qaldırmaq, biznes və investisiya imkanlarını genişləndirmək, milli iqtisadiyyatın dayanıqlı inkişafını və qlobal çağırışlara hazır olmasını təmin etmək məqsədilə ardıcıl və sistemli tədbirlər həyata keçiriləcək. Həmçinin sahibkarlığın inkişafı, bütün bazar iştirakçıları üçün bərabər və əlverişli şəraitin yaradılması, özəl sektorun iqtisadi proseslərdə rolunun artırılması, dövlət-özəl sektor əməkdaşlığının genişləndirilməsi, habelə rəqabət sahəsində elmi-analitik bazanın gücləndirilməsi üzrə tədbirlər nəzərdə tutulub.

### Rəqabət vəziyyətini əks etdirən xəritə hazırlanacaq

Fəaliyyət Planına əsasən, bazar iştirakçılarının fəaliyyət imkanlarının genişləndirilməsi, dövlət müəssisələrinin fəaliyyətində rəqabətli neytrallığın təşviqi, rəqabətli bazar modelinə mərhələli keçid, ölkədə rəqabət vəziyyətini əks etdirən xəritənin hazırlanması ilə bağlı yeni təkiflər və icra mexanizmləri hazırlanacaq. Həmçinin bazar iştirakçılarının və istehlakçıların məlumatlılıq səviyyəsinin artırılması məqsədilə elmi tədqiqatların hazırlanması və nəticələrinin rəqabət siyasətində tətbiqi, rəqabət iqtisadiyyatı və rəqabət hüququ üzrə mövzuların ali təhsil proqramlarına inteqrasiyası planlaşdırılır. Rəqabət sahəsində yenilənmiş təhsil proqramlarının tətbiqinə başlanılması və tələbələrin rəqabət sahəsində bilik və səriştələrlə əhatəsinin təmin edilməsi, mövcud elmi və təhsil potensialından səmərəli istifadə Fəaliyyət Planının istiqamətlərindəndir.

Milli Fəaliyyət Planına uyğun olaraq, beynəlxalq təşkilatlar və xarici ölkələrin rəqabət orqanları ilə əməkdaşlığın gücləndirilməsi, qabaqcıl təcrübələrin öyrənilməsi və tətbiqi, ölkədə fəaliyyət göstərən sahibkarların rəqabət siyasəti üzrə məsləhətləşmə və əməkdaşlıq proseslərində iştirakının genişləndirilməsi tədbirləri həyata keçiriləcək. Sahibkarlar və onların assosiasiyaları ilə müntəzəm məsləhətləşmələrin keçirilməsi, irəli sürülmüş təkliflərin qiymətləndirilməsi və nəticələr üzrə əks əlaqənin təmin olunması, kommunikasiya tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi, qarşılıqlı fəaliyyət qaydasının və icra qrafikinin hazırlanması nəzərdə tutulur.

Milli Fəaliyyət Planında tədbirlərin icrası üçün tələb olunan xərclər dövlət büdcəsində nəzərdə tutulmuş vəsait, büdcədənkənar vəsait, eləcə də qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilməsi həyata keçiriləcək.

Ümumilikdə, sənədin icrası ölkədə rəqabətli bazar münasibətlərinin inkişafına, sahibkarlıq və investisiya fəallığının yüksəldilməsinə, innovativ biznes təşəbbüslərinin təşviqinə, iqtisadi subyektlərin rəqabətqabiliyyətliliyinin artırılmasına və dayanıqlı iqtisadi artımın dəstəklənməsinə xidmət edəcək.

***E.CƏFƏRLİ***

## Paytaxtın bolşevik-daşnak işğalından azad edilməsindən 108 il ötür

# Bakı azadlığına qovuşdu

Eyni tarixi köklərə malik olan Azərbaycan və Türkiyə hər zaman xoş günlərin sevincini bölüşdükləri kimi, çətin günlərdə də daim bir yerdə olublar. İki xalqın dostluğu, qardaşlığı bir sıra ağır sınaqlardan keçərək daha da möhkəmlənib. Belə çətin sınaqlardan birini də 108 il bundan əvvəl - 1918-ci ilin 15 sentyabrında yaşamışıq. Söhbət həmin tarixdə Nuru paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu tərəfindən Bakının daşnak-bolşevik əsarətindən qurtulmasından gedir. Bu gün doğma, əziz şəhərimiz qədimliyin və müasirliyin unikal harmoniyasından yaranan təkrarsız gözəlliyi ilə bütün dünya azərbaycanlılarının qürur mənbəyidir. Bu şəhər Şərqdə Günəş kimi parlayan müstəqil Azərbaycan dövlətinin paytaxtıdır. Ancaq tarixi də unuda bilmərik. Tam əminliklə demək mümkündür ki, zamanında bəhs etdiyimiz hadisələr baş verməsə idi, gələcək nəsillərə Bakını Azərbaycanın paytaxtı kimi görmək xoşbəxtliyi nəsib olmayacaqdı.



Qafqaz İslam Ordusunun komandanı Nuru Paşa

### Azərbaycana hərbi qüvvələr göndərildi

Bəhs olunan dövrdə regionda ziddiyyətli proseslər izlənilirdi. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti (AXC) elan olunan vaxtda da Bakı yad əllərdə - erməni-bolşevik birləşmələrinin nəzarətində idi. Elə bu səbəbdən də AXC respublikamıza idarəçiliyi Gəncədən həyata keçirmək məcburiyyətində qalmışdı. Şaumyanın rəhbərlik etdiyi Bakı Xalq Komissarları Sovetinin qarşıya qoyduğu əsas məqsədlərdən biri isə yaxın perspektivdə Bakının milli tərkibini ermənilərin xeyrinə dəyişmək, daha sonra isə Azərbaycandan ayırıb ona muxtariyyət statusu qazandırmaq idi.

Digər imperialist güc mərkəzləri də Bakıda özlərinin çirkin niyyətlərini reallaşdırmaqdan ötrü əlverişli məqam gözləyirdilər. Bütün bu kimi amillər doğma şəhərimizin mümkün qədər tez bir zamanda erməni-bolşevik işğalından azad edilməsini həyati zərurətə çevirmişdi.

Həmin ərəfədə Azərbaycan Xalq Cümhuriyyətinin dövlətin müstəqilliyini müdafiə etməyə, xalqı qorumağa qadir milli hərbi qüvvələri hələ tam formalaşmamışdı. Yenicə qazanılan müstəqilliyimizin itirilməsi təhlükəsi tam real idi. Belə çətin dönəmdə 1918-ci il iyunun 4-də Batumda Azərbaycan Xalq Cümhuriyyəti ilə imzalanmış müqaviləyə əsasən Osmanlı dövləti Azərbaycana yardım etməyi öz üzərinə götürdü. Daşnak-bolşevik hücumlarının son dərəcə kəskinləşdiyi bir şəraitdə Osmanlının hərbi naziri Ənvər paşa qardaşı Nuru paşanın komandanlığı ilə Azərbaycana hərbi qüvvələr göndərdi. Beləliklə, Azərbaycanın milli hərbi qüvvələri də daxil olmaqla Qafqaz İslam Ordusu yaradıldı.

### Azad olunan Gəncədən Bakıya doğru

1918-ci il mayın 9-da Təbrizə, on bir gün sonra isə Araz çayına çatan Nuru paşa mayın 25-də Gəncəyə gəldi və onun rəhbərlik etdiyi Qafqaz İslam Ordusu Azərbaycanda xilaskarlıq missiyasına buradan başladı. Bəhs olunan dövrdə Gəncədə vəziyyət ağır idi. Erməni-bolşevik qruplaşması Bakı kimi, Gəncəni də tamamilə öz nəzarəti altına keçirmək istəyirdi. Açıq demək lazımdır ki, Qafqaz İslam Ordusu Gəncəyə gəlməsə idi, burada AXC öz fəaliyyətini təşkil edə bilməyəcəkdi.

İyunun 10-da Gəncədə ermənilərin tərksilah edilməsinə başlanıldı. Ermənilərin tamamilə tərksilah edilməsi üç gün ərzində başa çatdırıldı. Bununla da Gəncədə AXC hökuməti və Qafqaz İslam Ordusu üçün gözlənilən təhlükənin qarşısı alındı.

Daşnak-bolşevik qüvvələrinin Gəncədə məğlubiyyətə uğraması və AXC-nin buradakı fəaliyyəti Şaumyan başda olmaqla Bakı xalq komissarları sovetinin rəhbərliyini hiddətləndirdi. Bakı xalq komissarları soveti tərəfindən AXC-nin və Qafqaz İslam Ordusunun fəaliyyətinə son qoymaq üçün xüsusi plan hazırlanmışdı. Elə bu məqsədlə də 1918-ci il iyunun 4-də 20 minlik Bakı soveti qüvvələri hərbi və dəniz işləri üzrə komissar Korqanovun əmri ilə Hacıqabuldan qərb istiqamətində hücuma başladı. Qafqaz İslam Ordusu düşmən qüvvələrini Qaraməryəm ətrafında qarşıladı.

Düşmən qüvvələri ilk dəfə məğlubiyyətin acısını Göyçayda iyunun 27-də yaşadılar. Qafqaz İslam Ordusu düşmən qüvvələrinə sarsıdıcı zərbələr vurdu. Göyçayda aparılan uğurlu əməliyyatlardan sonra Qafqaz İslam Ordusu müdafiə taktikasını hücumla əvəzlədi və düşmən tərəf zəbt etdiyi ərazilərdən geriyə sıxışdırıldı. Ağsu, Kürdəmir düşməndən təmizləndi. İyulun 20-də Şamaxı Qafqaz İslam Ordusunun nəzarətinə keçdi.





15 sentyabr 1918-ci il. Qafqaz İslam Ordusu Bakı küçələrində



Qafqaz İslam Ordusunun Bakıya yürüşü

### "Sentrokaspi" ağ bayraq qaldırdı

Bakıya doğru hərəkət edən Qafqaz İslam Ordusunun əsgərləri iyulun 29-da və 30-da artıq Bibiheybət və Xırdalan istiqamətinə gəlib çatmışdılar. Milli qüvvələrdə böyük ruh yüksəkliyi var idi. Qafqaz İslam Ordusu qarşı tərəfə döyüşsüz təslim olmaqla bağlı müraciət etdi. Bakı sovetinin rəhbərliyinə bildirildi ki, şəhər döyüşsüz təslim ediləcəyi təqdirdə, ermənilərin oradan istədikləri yerə çıxıb getmələrinə şərait yaradılacaq. Erməni-bolşevik qüvvələri belə bir humanist təklifə müsbət cavab vermədilər.

Qafqaz İslam Ordusu hissələri Bakı uğrunda döyüşlərdə düşmənin müqavimətini qırdı. S.Şaumyan hakimiyyətdən əl çəkdiyini elan etdi. Avqustun 1-də yeni hökumət - "Sentrokaspi" diktaturasının yaradıldığı elan edildi. Bu hökumətin eser, menşevik və ermənilər tərəfindən təşkil edildiyi bildirilsə də, əsas hakimiyyət Daşnaksutyun partiyasının əlində idi.

Sentyabrın 14-də axşam saat 20:30-da Qafqaz İslam Ordusunun komandanı Nuru paşa Bakı şəhərinə hücumu başa çatdırmaq üçün 100 saylı əmri imzaladı. Bakı üzərinə hücumu uğurla başa çatdırmaq üçün Qafqaz İslam Ordusunun əsgər və zabitlərinin sayı 14 minə çatdırıldı.

Bakı uğrunda həlledici döyüşlər sentyabrın 15-də səhər saatlarında başladı. Qafqaz İslam Ordusu bir neçə saat davam edən döyüşlərdən sonra düşməni təslim olmağa məcbur etdi. "Sentrokaspi" rəhbərliyi məğlubiyyətini etiraf edərək ağ bayraq qaldırdı.

### Vətən müharibəsində Türkiyə Azərbaycana güclü mənəvi-siyasi dəstək verdi

Dünya 108 il bundan əvvəl Gəncədə, Bakıda və digər ərazilərimizdə sarsılmaz Türk qardaşlığına şahidlik etmişdi. O dövrdə məhz Osmanlı Türkiyəsinin dəstəyi ilə müstəqil dövlətimiz təcavüzdən qorundu, şəhərlərimiz, o cümlədən də paytaxtımız erməni-bolşevik işğalından azad edildi.

Tale elə gətirdi ki, biz XX yüzilikdə - ötən əsrin doxsanıncı illərinin əvvəllərində ikinci dəfə müstəqilliyə qovuşanda yenidən güc mərkəzlərinin məkrli planlarına tuş gəldik. Həmin mərkəzlərin əlində alət olan Ermənistan respublikamızın ərazilərinin 20 faizini işğal altına aldı. Azərbaycan xalqı və dövləti təxminən otuz il ərzində işğal faktı ilə barışmadı və 2020-ci il sentyabrın 27-də düşmənin növbəti təxribatına cavab olaraq ədalətli müharibəyə başladı. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan 44 günlük  müharibə ərazi bütövlüyümüzün hərbi-siyasi yolla azad edilməsi ilə nəticələndi. Vətən müharibəsində də Türkiyə Azərbaycanla həmrəylik nümayiş etdirdi. Müharibənin ilk saatlarından Türkiyə iqtidarının respublikamıza mənəvi-siyasi dəstək verməsi, yanımızda olduqlarını bildirməsi bizim gücümüzə güc qatdı və biz tarixi zəfərimizə imza atdıq. Türk qardaşlığı budur - hər zaman, çətin günlərdə də, xoş günlərdə də bir yerdə olmaq!

***Mübariz FEYİZLİ***

# Qarabağa qürur səfəri

Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin müşayiəti ilə Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələr Qarabağ və Şərqi Zəngəzurda ikigünlük səfərdə olublar. Səfərdə 58 ölkə və 9 beynəlxalq təşkilatı təmsil edən 150 nəfərdən ibarət heyət iştirak edib.

Səfər çərçivəsində diplomatik korpusun nümayəndələri Prezident İlham Əliyevin rəhbərliyi ilə Xankəndi və Şuşa şəhərlərində, Ağdərə və Kəlbəcər rayonlarında həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq və inkişaf prosesi çərçivəsində reallaşdırılan sosial və iqtisadi infrastruktur layihələri, eləcə də tarixi-mədəni irs nümunələrinin mövcud vəziyyəti, onların qorunması və bərpası istiqamətində görülən tədbirlərlə tanış olublar.

Bu, diplomatik korpus nümayəndələrinin işğaldan azad edilmiş ərazilərə 2020-ci ildən etibarən sayca 22-ci səfəridir.

## Möhtəşəm qələbələrin rəmzi - Xankəndidə yaradılan Zəfər parkı

Azərbaycanın 44 günlük Vətən müharibəsində və 23 saatlıq lokal xarakterli antiterror əməliyyatında qazandığı möhtəşəm qələbələr son 200 illik tariximizin ən parlaq səhifələrini təşkil edir. Bunadək Azərbaycan xalqı dəfələrlə yadellilərin hücumları nəticəsində torpaq itkilərinə məruz qalmışdı və beləliklə də, sərhədlərimiz xeyli kiçilmişdir. O cümlədən iyirminci əsrin əvvəllərində imperialist güc mərkəzləri özlərinin xəbis planlarının tərkib hissəsi kimi, tarixi Azərbaycan torpaqlarında Ermənistan dövləti yaratmışlar. Azərbaycan Xalq Cümhuriyyəti dönəmində tarixi şəhərimiz olan İrəvanın ermənilərə verilməsi böyük cinayət idi. Sonrakı mərhələlərdədə Zəngəzurun bir hissəsi və digər ərazilərimiz əldən getdi. Bütövlükdə, XX yüzillikdə xalqımız Ermənistan ərazisində dörd dəfə dəhşətli deportasiyalara məruz qalıb.

44 günlük Vətən müharibəsində və 23 saatlıq lokal xarakterli antiterror əməliyyatında Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müəllifliyi ilə xalqımızın yeni tarixi yazıldı. Təxminən otuz ili əhatə edən işğala son qoyuldu, ərazi bütövlüyümüz hərbi-siyasi yolla təmin edildi. Eyni zamanda, Qarabağda separatizmin kökü birdəfəlik kəsildi. Bu qələbələri heç kim bizə hədiyyə etməyib. Onları igid, vətənpərvər Azərbaycan övladları canları, qanları bahasına qazanıblar. Azərbaycan var olduqca bu qələbələr də yaşayacaq və nəsillərdən-nəsillərə ötürüləcək.

Xankəndidə yaradılan Zəfər parkı da şanlı qələbələrimizin rəmzidir. Bir vaxtlar bu tarixi Azərbaycan şəhəri separatçıların yuvasına çevrilmişdi. Ölkəmiz və xalqımız əleyhinə cinayətkar planlar məhz burada hazırlanırdı. İndi isə bu şəhər doğma əllərdədir, burada Azərbaycan Bayrağı əzəmətlə dalğalanır. Səfər çərçivəsində respublikamızda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri Xankəndi Zəfər parkına gəlib və onunla yaxından tanış olublar.

Bildirilib ki, park Azərbaycan xalqının tarixi ədalətin bərpası və öz ərazi bütövlüyünün qorunması uğrunda göstərdiyi döyüş əzmini, misilsiz qəhrəmanlığını və 44 günlük Vətən müharibəsi zamanı qazandığı möhtəşəm Qələbəni əks etdirir.

Zəfər parkının ümumi sahəsi 9 hektardır. Parkın girişindən Zəfər tağına doğru 44 pilləkən salınıb. Onların mərkəzi hissəsində quraşdırılmış lövhələr üzərində müharibənin gedişi barədə məlumatlar, o cümlədən azad olunmuş yaşayış məntəqələrinin adları yazılıb. Eyni zamanda, 2023-cü ildə keçirilmiş antiterror əməliyyatının nəticələrini əks etdirən məlumatlar da lövhələrdə qeyd olunub.

Zəfər tağının hündürlüyü Vətən müharibəsi günlərinin sayına görə rəmzi olaraq 44 metr təşkil edir. Terrasda Zəfər Günü ilə bağlı 8 rəqəmini simvolizə edən konstruksiya inşa olunub.







## Qalib Azərbaycanın gücünün, tarixi ədalətə və beynəlxalq hüquqa sadiqliyinin təntənəsi

Respublikamızda akreditə olunmuş diplomatik korpusun işğaldan azad olunmuş ərazilərə sayca 22-ci səfərini bir qürur tablosu kimi dəyərləndirə bilərik. İlk növbədə nümayəndə heyətinin tərkibi özlüyündə çox şey deyir. Yada salaq ki, müharibədən sonrakı ilk vaxtlarda işğaldan azad olunmuş ərazilərə belə səfərlərin təşkili bir sıra Qərb dairələrində ciddi müzakirələr yaradırdı. Hətta səfirlərinin Azərbaycanın dəvəti ilə Şuşaya, Xankəndiyə getməsinə icazə verməyən dövlətlər də var idi. Fransanın qanunvericilik orqanı, Avropa Şurası Parlament Assambleyası Qarabağda qeyri-qanuni rejimin tarixin arxivinə göndərilməsini, separatçıların "liderlərinin" qandallanaraq Bakıya gətirilmələrini, ermənilərin Qarabağdan könüllü olaraq köç etmələrini sinirə bilməyərək ölkəmizə qrşı heç bir əsası olmayan qərəzli qətnamələr qəbul edirdilər.

Bu gün biz şanlı zəfərlərimizdən fəxr hissi ilə söhbət açarkən işğal illərində rastlaşdığımız ədalətsizliyi də unutmuruq. Otuz il ərzində münaqişənin sülh yolu ilə həllinə cəlb olunan ATƏT-in Minsk qrupu, bir sıra güc mərkəzləri ikili standartlar ortaya qoydular, keçmiş status-kvonun sosnsuzluğadək qalmasına cəhdlər göstərdilər. Hətta BMT-nin dörd qətnaməsi belə kağız üzərində qaldı. Həmin dairələr 44 günlük müharibə dövründə irəliləyən, əzəli torpaqlarını işğaldan azad edən Azərbaycana mane olmağa çalışdılar. Sonradan isə müharibənin və 23 saatlıq lokal xarakterli antiterror əməliyyatının nəticələrini qəbul etmək istəmədilər və cəfəng iddialar ortaya qoydular.

Azərbaycan isə tarixi ədalətə və beynəlxalq hüquqa əsaslanmaqla ardıcıl siyasət həyata keçirdi, öz mövqeyindən geri çəkilmədi və yaratdığı reallıqları dünyaya qəbul etdirməyə nail oldu. Bu, ölkəmizin gücünün, Prezident İlham Əliyevin uğurlu diplomatiyasının təntənəsidir. Ötən ilin avqust ayında Vaşinqtonda Azərbaycan, ABŞ və Ermənistan liderlərinin iştirakı ilə keçirilən görüşlər, birgə bəyanatın imzalanması, yekun sülh sazişinin paraflanması o demək idi ki, dünya artıq Azərbaycanın yaratdığı reallıqları qəbul edir və təqdirlə qarşılayır.

Qeyd etdiyimiz kimi, zamanında Azərbaycanın ədalətli mövqeyi ilə barışmaq istəməyənlər sırasında, həmçinin Avropanın bəzi dövlətləri və ayrı-ayrı qurumları da var idi. İşğaldan azad olunmuş ərazilərə diplomatik korpusun nümayəndə heyətinin tərkibinə Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Maqdalena Qrononun, Fransanın ölkəmizdəki səfirinin də qatılmaları çox böyük siyasi önəm daşıyır. Görün, Prezident İlham Əliyevin zərgər dəqiqliyi ilə etdiyi gedişlər, apardığı ardıcıl diplomatiya necə böyük keyfiyyət dəyişikliyi yaradıb və biz haradan hara gəlmişik. Kiçik Azərbaycan gücü, iradəsi, ədalətə və beynəlxalq hüquqa sadiqliyi sayəsində dünyanın və bir vaxtlar ermənilərin təəssübünü çəkən Avropanın mövqeyini tamam dəyişməyə nail olub. Sahədəki qələbələrimiz siyasi müstəvidə qazanılan qələbələrlə tamamlanır. Aİ-nin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsinin səsləndirdiyi bir sıra mesajlar diqqət çəkir. "Avropa İttifaqı (Aİ) Qarabağda sülhün təmin olunmasına yönəlmiş proses çərçivəsində Azərbaycan və region ölkələri ilə praktiki əməkdaşlığa hazırdır", - deyə Maqdalena Qrono Xankəndiyə səfəri zamanı deyib. O bildirib ki, sülh prosesinə əsasən yerli aktorlar rəhbərlik edir və Aİ bunu tam şəkildə dəstəkləyir: "Biz hər iki hökumət və hər iki ölkə ilə çox praktiki fəaliyyətlərin həyata keçirilməsində tərəfdaş olmağa hazırıq".

Vaşinqton görüşündən ötən son bir ildə regionda real sülh şəraiti hökm sürürür. O cümlədən Azərbaycan sülhə sadiqliyini ortaya qoyaraq öz ərazisindən üçüncü ölkələrin məhsullarının Ermənistana tranzit keçidinə şərait yaradıb və bu ölkəyə strateji əhəmiyyət daşıyan dizel, benzin ixracına başlayıb. Həmçinin ikitərəfli dialoq genişlənir. Liderlər arasında bu günlərdə ŞƏT-in Bişkek Zirvə tədbiri çərçivəsində baş tutan görüş konstruktiv keçdi. Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Xankəndi şəhərində əsaslı şəkildə yenidən qurulmuş Mədəniyyət Mərkəzində çıxışı zamanı diqqətə çatdırıb ki, biz sülh şəraitində yaşamağı öyrənirik və bu istiqamətdə irəliləyirik. "Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan üçün münaqişə bitib. Anladıq ki, sülh reallıqları altında yaşamaq çox böyük hissdir. Azərbaycan regionumuzda davamlı sülhün bərqərar olması və daha da möhkəmləndirilməsi üçün əlavə səylər göstərməyə davam edəcək. Sülh həm də yerlərdəki bərpa və yenidənqurma səylərindən başlayır. Çünki sülh sadəcə qarşıdurmanın olmaması deyil, etimadın qurulması, bərpa və yenidənqurma deməkdir", - deyə Prezidentin köməkçisi əlavə edib.

## Erməni vandalizminin kədərli izləri

Hazırkı dönəmdə Ermənistan hakimiyyətinin özü ermənilərin uydurduqları dənizdən-dənizə Ermənistan, kilsə tabusu kimi miflərin üstündən qara xətt çəkir. 44 günlük müharibədə Ermənistan ordusunda 11 min fərari qeydə alındı ki, bu da "qəhrəman erməni xalqı" mifini tar-mar etdi.

Ermənilərin uydurduqları miflərdən biri də "mədəni xalq" xülyası idi. İşğaldan azad olunmuş ərazilərin vəziyyəti onların necə "mədəni xalq" olduqlarını bütün cəhətləri ilə ortaya qoyur.

Hətta tarixi mədəni-dini irs nümunələri də sərhəd tanımayan erməni vandalizmindən kənarda qalmayıb. Səfər çərçivəsində diplomatlar Şuşada Aşağı Gövhər Ağa məscidinə gəliblər. Qeyd olunub ki, Şuşa şəhəri işğal altında olduğu illərdə erməni vandalizminə məruz qalmış Aşağı Gövhər Ağa məscidində əsaslı bərpa işləri aparılıb. XIX əsrdə Kərbəlayi Səfixan Qarabağinin memarlığı ilə ərsəyə gələn Aşağı Gövhər Ağa məscidi İbrahim xanın qızı Gövhər Ağa tərəfindən Şuşada inşa etdirilmiş məscidlərdən birincisi sayılır. Məscid şəhərin tarixi-memarlıq rəmzlərindən biridir.

Şuşada nümayiş etdirilən güllələnmiş heykəllər də erməni vandalizminin kədərli izləri sırasında yer alır. Xarici korpusun nümayəndələri Şuşa şəhərinin mərkəzi meydanında Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin güllələnmiş heykəllərini də ziyarət ediblər.

Ermənilərin işğal dövründə Qarabağda və Şərqi Zəngəzurda qoyduqları "mədəni" izlərdən biri də tarixi abidələrimizi özününküləşdirmələridir Bəli, bu, bir erməni xislətidir. Onlar harada məskən salırlarsa, orada torpaq altına xaçlar, digər erməni "izləri" basdırmaqla və sonradan qazıntı apararaq onları üzə çıxartmaqla özlərinə saxta tarix yazırlar. Ermənilər həmçinin işğal dövründə bu qəbildən olan saxtakarlıqlara əl atmaqla xristian keçmişimizə, alban mədəni irsimizə sahiblənməyə uğursuz cəhdlər göstəriblər.

Buna diplomatlar da şahidlik ediblər. Səfərin ikinci günündə diplomatik korpusun nümayəndələri Ağdərə rayonunun Vəngli kəndinin yaxınlığında yerləşən Gəncəsar Monastır Kompleksini, daha sonra isə Kəlbəcər rayonunun Vəng kəndində yerləşən Xudavəng Monastır Kompleksini ziyarət ediblər.

Ağdərə rayonunun Vəngli kəndi yaxınlığında, Xaçınçayın sağ sahilində yerləşən Gəncəsər monastır kompleksinin əsas kilsəsi 1216-1238-ci illərdə Xaçın knyazı Həsən Cəlal Dövlənin təşəbbüsü ilə inşa edilib. 1993-2023-cü illərdə abidə işğal altında qaldığı dövrdə kompleksdə müxtəlif qanunsuz bərpa və yenidənqurma işləri aparılıb. Əldə edilmiş materiallara əsasən, abidənin tarixi mühitinə və memarlıq xüsusiyyətlərinə ciddi müdaxilələr edilib, o cümlədən 286 qəbrin yeri dəyişdirilib, mühafizə divarları müasir daş plitələrlə üzlənib, narteks və məbəddə qapı-pəncərə elementləri yenilənib, döşəmə, altar və bir sıra dekorativ hissələrə müdaxilə edilib. Kompleksin ətrafında yeni inzibati və seminariya təyinatlı tikililərin inşası





nəticəsində abidənin tarixi mühiti əhəmiyyətli dərəcədə dəyişdirilib.

1992-2020-ci illərdə ermənilərin təcavüzünə məruz qalan memarlıq abidələrindən biri də Kəlbəcər rayonundakı Xudavəng məbədidir. İşğal dövründə erməni apostol kilsəsinin dəstəyi və Ermənistan dövlətinin vəsaiti hesabına monastırda "bərpa" adı altında qanunsuz işlər görülüb. Arzu xatun, Böyük Həsən kilsələri və kompleksə daxil olan digər tikililər üzərində saxtalaşdırma əlamətləri olan əlavələr edib, abidələrin bir çox hissələrini vandalizmə məruz qoyublar. Torpaqlarımız işğaldan azad ediləndən sonra monastırda qalan erməni keşiş və rahiblər abidələrdəki qədim freskaları xarici mütəxəssislərin iştirakı ilə xüsusi üsulla kəsib götürüb, qanunsuz olaraq Azərbaycan Respublikasının ərazisindən çıxarıblar.

Xudavəng monastır kompleksinin zəng qülləsində yanaşı qoyulmuş bir-birinin üstündə iki dairəvi xonça və həyat ağacı şəklində xaç kompozisiyalı xaçdaşlar və kitabələr də işğal dövründə sökülərək talan edilib.

Postmüharibə dönəmində isə işğaldan azad olunmuş ərazilərdəki tarixi irs nümunələrinin ikinci həyatı başlayıb. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu tarixi mədəni-dini abidələrin bərpasını öz üzərinə götürüb. İndiyədək Fondun dəstəyi ilə bir sıra abidələrin bərpası başa çatdırılıb, digərlərində isə işlər xüsusi layihələr əsasında davam etdirilir. Bununla da Heydər Əliyev Fondu, şəxsən Mehriban xanım Əliyeva tarixi mədəni irsimizin qorunmasına və gələcək nəsillərə ötürülməsinə öz töhfəsini vermiş olur.

İşğaldan azad olunmuş ərazilərə səfər edən diplomatlar da Qarabağın və Şərqi Zəngəzurun tarixi və mədəni irsinin bərpasının əhəmiyyətini xüsusi vurğulayıblar.

"Bu, ümumbəşəri irsdir. Hökumət tarixi abidələrin bərpası və onların ilkin görkəminə qaytarılması istiqamətində çox yaxşı işlər görür. Çünki bu irs yalnız bir regiona və ya icmaya məxsus deyil, hamımıza aiddir", - deyə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycandakı nümayəndəsi Nasar Hayat bildirib.

## Diplomatların heyranlığı - ölkəmiz azad ərazilərin bərpasında dünyaya nümunə göstərir

Səfər çərçivəsində diplomatik korpusun nümayəndələri Kəlbəcərdə "İstisu" mineral su zavodunun və Xankəndi tikiş fabrikinin fəaliyyəti ilə tanış olublar. Kəlbəcərin Dəlidağ ərazisində, dəniz səviyyəsindən təxminən 1600 metr yüksəklikdə yerləşən "İstisu" mənbəyindən çıxan suyun temperaturu 60 dərəcədən yüksəkdir. Tərkibinə görə gündəlik istifadə üçün yararlı təbii qazlı mineral su hesab olunan "İstisu" zəngin və balanslaşdırılmış mineral tərkibi ilə seçilir.

Mütəxəssislərin rəyinə əsasən, unikal təbii şəraitdə formalaşan su insan orqanizmi üçün faydalı xüsusiyyətlərə malikdir.

Xankəndi tikiş fabrikinin qurulması isə Azərbaycan və Özbəkistan arasında iqtisadi və investisiya əməkdaşlığının dərinləşdirilməsinə dair iki ölkə prezidentlərinin tapşırıqları əsasında həyata keçirilib. Layihənin ilkin investisiya dəyəri 6 milyon manatdır.

Hər iki müəssisənin fəaliyyəti Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında dirçəlişin, yeni həyatın gözəl nümunəsidir. Qalib Azərbaycan azad ərazilərin bərpasında da dünyaya nümunə göstərir. Son beş ildə bu ərazilərdə otuz illik işğalın kədərli nəticələrinin aradan qaldırılması, infrastruktur quruculuğu, yaşayış məntəqələrinin bərpası və məskunlaşdırılması istiqamətində böyük iş həcmi yerinə yetirilib. Qarabağ yenidən dirçəlir. Artıq 40 mindən çox keçmiş azərbaycanlı məcburi köçkün Qarabağa qayıdıb və daha çoxu da qayıdacaq. Bu, böyük qürurdur. 2020-ci ildən etibarən 45-dən çox yaşayış məntəqəsi yenidən qurularaq keçmiş məcburi köçkünlərin istifadəsinə verilib. Hazırda Qarabağda təxminən 100 min mülki şəxs yaşayır, işləyir və təhsil alır.

Bütün bunlar Azərbaycanın münaqişədən sonrakı bərpa və yenidənqurma sahəsində topladığı unikal təcrübədir və digər ölkələr də bu təcrübədən bəhrələnə bilərlər. Yeri gəlmişkən, diplomatlar da işğaldan azad olunmuş ərazilərdə görülən işlərdən heyranlıqlarını gizlətməyiblər. "Bu, mənim Qarabağa ilk səfərim deyil. Təxminən iki ayda bir müxtəlif səbəblərlə buraya gəlirəm və dövlətin "Böyük Qayıdış" Proqramının real və əyani şəkildə həyata keçirilməsini böyük heyranlıqla müşahidə edirəm", - deyə Belarusun Azərbaycandakı səfiri Dmitri Pineviç bildirib.

"Bu, Şuşaya üçüncü səfərimdir, bundan əvvəl Xankəndidə də olmuşam. Hər dəfə buraya gələndə hər iki şəhərdə böyük dəyişikliklərin şahidi oluram". Bunu isə Çin Xalq Respublikasının Azərbaycandakı səfirliyinin müşavir-elçisi Din Tao deyib.

Diplomatın sözlərinə görə, Xankəndinin, Şuşanın və bölgənin digər şəhərlərinin inkişaf dinamikası nikbinlik doğurur. "Ümid edirəm ki, Azərbaycan Prezidentinin rəhbərliyi ilə Xankəndi, Şuşa və regionun digər şəhərləri daha da inkişaf edəcək", - deyə Din Tao qeyd edib.

***Mübariz ABDULLAYEV***

# YAP özünü qələbələr partiyası kimi təsdiqləyib








Sentyabrın 12-də Yeni Azərbaycan Partiyası (YAP) Qubadlı rayon təşkilatının X konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü önünə gül dəstələri düzülərək xatirəsi ehtiramla yad olunub.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Qubadlı rayon təşkilatının sədri Təhmasib Rüstəmov hesabat məruzəsi ilə çıxış edib. O, qarşıya qoyulan vəzifələrin icrası məqsədilə görülmüş işlər barədə məlumat verib. Bildirilib ki, Yeni Azərbaycan Partiyası bütün mərhələlərdə uğurla fəaliyyət göstərib, özünü qələbələr partiyası kimi təsdiqləyib.

Qubadlı Rayon İcra Hakimiyyətinin başçısı Malik İsaqov bildirib ki, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpa olunması tariximizin ən şanlı səhifəsidir. Onun sözlərinə görə, ölkəmizin bütün bölgələrində olduğu kimi, Qubadlı rayonunda da genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirilir. Vurğulanıb ki, Azərbaycanın qazandığı möhtəşəm qələbələr nəticəsində uzun illər yurd həsrəti ilə yaşayan qubadlılılar da doğma torpaqlarına qovuşacaqlar.

Milli Məclisin deputatı Ceyhun Məmmədov çıxışında bildirib ki, YAP tarixi zərurətdən yaranan siyasi partiya olaraq qarşıya qoyduğu missiyanı şərəflə yetirib. Onun sözlərinə görə, bu missiyaya müstəqil dövlət quruculuğu, demokratik ənənələrin inkişafı və digər məsələlər daxil idi: “Ulu Öndər Heydər Əliyevin qurub yaratdığı müasir müstəqil Azərbaycanı Prezident, Ali Baş Komandan İlham Əliyev qalib dövlətə çevirib”.

Çıxış edən 3-cü mikrorayon ünvanı üzrə ərazi partiya təşkilatının sədri Rəhminə Mehtiyeva və Vətən müharibəsi qazisi Sənan Həsənov hesabat məruzəsi ilə bağlı fikirlərini bildiriblər.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Rəşad Abbaszadə rayon təşkilatının müasir çağırışlara uyğun olaraq fəaliyyət göstərdiyini bildirməklə yanaşı, qarşıda duran vəzifələrdən də ətraflı bəhs edib.

Konfransda YAP Qubadlı rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş hesab edilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Tədbirin sonunda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# YAP beynəlxalq aləmdə də nüfuzlu siyasi təşkilat kimi qəbul olunur








Sentyabrın 12-də Yeni Azərbaycan Partiyası (YAP) Ucar rayon təşkilatının X konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Ucar rayon təşkilatının sədri Şəhla Abdullayeva hesabat məruzəsi ilə çıxış edib. O bildirib ki, dövlətçilik tariximizin misilsiz inkişaf mərhələsi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Təşkilat sədri deyib ki, müstəsna xidmətləri ilə öz adını Azərbaycan tarixinə əbədi həkk etdirmiş bu müdrik şəxsiyyətin ölkəmizə rəhbərlik etdiyi illər intibah, tərəqqi və milli oyanış dövrü kimi səciyyələnir.

YAP Ucar rayon təşkilatının hesabat dövründə sıralarını genişləndirdiyini vurğulayan Ş.Abdullayeva qeyd edib ki, təşkilat bundan sonra da üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışacaqdır.

Ucar Rayon İcra Hakimiyyətinin başçısı Mənsur Məmmədov diqqətə çatdırıb ki, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan tarixi nailiyyətlər əldə edib: “Belə ki, ölkəmizdə iqtisadiyyat sürətlə inkişaf edib, işsizlik və yoxsulluq minimum həddə endirilib, əmək haqları, pensiya və sosial müavinətlər dəfələrlə artırılıb. Hazırda Azərbaycan regionun lider ölkəsi olmaqla, dünya arenasında müstəqil siyasət yürüdən etibarlı tərəfdaş kimi qəbul edilir”.

Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasının üzvü Nazim İsmayılov qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi möhtəşəm uğurların zirvəsində 2020-ci ilin 44 günlük Vətən müharibəsi və 2023-cü ildə həyata keçirilən bir günlük lokal xarakterli antiterror əməliyyatı nəticəsində qazanılan parlaq qələbələr dayanır. O, “Azərbaycan artıq qlobal arenada ərazi bütövlüyünü və suverenliyini öz gücü ilə bərpa edən bir ölkə kimi tanınır”, - deyə vurğulayıb.

Sonra Ucar Rayon Ağsaqqallar Şurasının sədri Mirzalı Ağamalıyev, Mərkəzi Aran Regional Mədəniyyət İdarəsinin Ucar rayonu üzrə nümayəndəliyi ərazi partiya təşkilatının sədr müavini Mətanət Qəribova, təhsil sektoru ərazi partiya təşkilatının sədri Anar Misirov, Ucar Rayon Mərkəzi Xəstəxanası ərazi partiya təşkilatının sədri Şəhla İbrahimova və Şahlıq kənd ərazi partiya təşkilatının sədri Rahib Şərifov çıxış ediblər.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Fəsli Nəbiyev qeyd edib ki, Azərbaycan bütün sahələrdə misilsiz inkişaf mərhələsinə qədəm qoyub. Onun sözlərinə görə, YAP zəfərlər partiyası kimi iştirak etdiyi bütün seçkilərdə inamlı qələbə qazanıb: “Yeni Azərbaycan Partiyası beynəlxalq aləmdə də nüfuzlu siyasi təşkilat kimi qəbul olunur, dünyanın aparıcı partiyaları ilə əməkdaşlıq edir və ölkənin strateji maraqlarının qorunmasına töhfə verir”.

Konfransda YAP Ucar rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# YAP ölkənin ictimai-siyasi həyatında əvəzsiz rol oynayır







Sentyabrın 12-də Yeni Azərbaycan Partiyası (YAP) Binəqədi rayon təşkilatının XI konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda hesabat məruzəsi ilə çıxış edən YAP Binəqədi rayon təşkilatının sədri Vüsar İsmayılov bildirib ki, 21 noyabr 1992-ci il tarixində Yeni Azərbaycan Partiyasının yaranması müstəqil Azərbaycan tarixinin ən mütərəqqi siyasi hadisələrindən biri kimi səciyyələnir. Onun sözlərinə görə, Ulu Öndərin siyasi hakimiyyətə qayıdışı ilə Azərbaycan parçalanmaq və məhv olmaq təhlükəsindən xilas olub, ölkəmiz bütün sahələrdə ciddi uğurlara imza atıb. Hesabat dövründə YAP Binəqədi rayon təşkilatının fəaliyyəti, ərazi partiya təşkilatları ilə effektiv koordinasiya və xüsusilə gənclərlə qadınların ictimai fəallığının artırılması yönündə görülən işlər barədə məlumat verən sədr, həmçinin qarşıda duran hədəflərdən də danışıb.

Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Elxan Allahverdiyev çıxış edərək bildirib ki, Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kurs Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Vurğulanıb ki, qüdrətli Azərbaycan qətiyyətli mövqeyi sayəsində dünyada söz sahibi olan nüfuzlu dövlətlərdən birinə çevrilib. O, bu istiqamətdə partiyanın fəaliyyətinin də mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

Milli Məclisin deputatı Səbinə Xasayeva çıxışında Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən və bütün sahələrdə davamlı inkişafı hədəfləyən uğurlu islahatlardan bəhs edib. O, dövlət siyasətinin sosial rifahın yüksəldilməsinə, iqtisadi imkanların genişləndirilməsinə və Azərbaycanın beynəlxalq mövqelərinin daha da möhkəmləndirilməsinə xidmət etdiyini vurğulayıb.

Milli Məclisin deputatı Kamaləddin Qafarov bildirib ki, Yeni Azərbaycan Partiyası regionun aparıcı siyasi qüvvəsi olaraq ölkəmizin ictimai-siyasi həyatında əvəzsiz rol oynayır. Onun sözlərinə görə, partiyanın milli maraqlarımıza xidmət edən uğurlu fəaliyyəti xalq-iqtidar birliyinin təmin olunmasında mühüm önəm kəsb edir.

Çıxış edən Bakı Dövlət Universitetinin Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının müdiri Hüseyn Əsgərov və partiya fəalı Yusif Tarverdiyev rayon təşkilatının fəaliyyətinə münasibət bildiriblər.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdir müavini Rafael Gülməmmədov Yeni Azərbaycan Partiyasının ümummilli mənafeləri rəhbər tutaraq ölkədə ictimai-siyasi sabitliyinin təminatçısı və dayanıqlı inkişafın aparıcı qüvvəsi kimi çıxış etdiyini vurğulayıb.

Konfransda YAP Binəqədi rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Qətiyyətli addımlar, parlaq gələcək







Sentyabrın 12-də Yeni Azərbaycan Partiyası (YAP) Tovuz rayon təşkilatının XI konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Tovuz rayon təşkilatının sədri Nihad Pənahov hesabat məruzəsi ilə çıxış edib. O bildirib ki, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində Azərbaycan mühüm tarixi nailiyyətlər qazanıb. Qeyd olunub ki, 2020-ci ilin 44 günlük Vətən müharibəsində və 2023-cü ildə keçirilən birgünlük lokal xarakterli antiterror tədbirlərində əldə olunan şanlı qələbələr nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyinin tam bərpa edilməsi dövlətçilik tariximizin ən mühüm hadisələrindən biridir.

Təşkilat sədri vurğulayıb ki, hesabat dövründə rayon təşkilatı partiyanın ideya və prinsiplərinin təbliği, ərazi partiya təşkilatlarının fəaliyyətinin gücləndirilməsi, partiya üzvləri ilə əlaqələrin genişləndirilməsi, gənclərin və qadınların ictimai-siyasi fəallığının artırılması istiqamətində ardıcıl iş aparıb.

Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə regionların inkişaf proqramının uğurla reallaşdırılması bölgələrin hərtərəfli inkişafını təmin edib. O, Yeni Azərbaycan Partiyasının ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvə olduğunu, YAP Tovuz rayon təşkilatının da hesabat dövründə rayonun ictimai-siyasi həyatında fəal iştirak etdiyini və qarşıya qoyulan vəzifələrin icrasına öz töhfəsini verdiyini qeyd edib.

YAP Təftiş Komissiyasının sədr müavini, Milli Məclisin deputatı Nizami Səfərov Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yoldan, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin qazandığı tarixi nailiyyətlərdən bəhs edib. O, rayon təşkilatının hesabat dövründə fəaliyyətini müsbət qiymətləndirib və gələcək fəaliyyətində uğurlar arzulayıb.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Araz Salmanov qeyd edib ki, Yeni Azərbaycan Partiyasının Tovuz rayon təşkilatı qarşıya qoyulan vəzifələrin səmərəli icrası istiqamətində məqsədyönlü iş aparır.

Tədbirdə, həmçinin “Fariz Ələkbərov küçəsi” ərazi partiya təşkilatının sədri Aysel Quliyeva, Hacıalılı kənd ərazi partiya təşkilatının sədri Sahib Quliyev, Vətən müharibəsi iştirakçısı Eyvaz Süleymanov və Tovuz Dövlət Sosial-İqtisadi Kollecinin direktor müavini Lamiyə Namazova çıxış ediblər.

Konfransda YAP Tovuz rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Yeni reallıqlar yeni imkanlar yaradır








Sentyabrın 12-də Yeni Azərbaycan Partiyası (YAP) Zəngilan rayon təşkilatının XI konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü önünə gül dəstələri düzülüb, xatirəsi ehtiramla yad edilib.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Zəngilan rayon təşkilatının sədri Natiq Quluzadə hesabat məruzəsi ilə çıxış edib. O bildirib ki, Ulu Öndər Heydər Əliyevin ideyaları əsasında fəaliyyət göstərən Yeni Azərbaycan Partiyası Azərbaycanın mütərəqqi inkişafının avanqard qüvvəsinə çevrilib. Onun sözlərinə görə, YAP Zəngilan rayon təşkilatı hesabat dövründə öz ideoloji-siyasi fəaliyyətini, o cümlədən ərazi partiya təşkilatları ilə əlaqələri genişləndirib və əhalinin müxtəlif təbəqələrini əhatə edən silsilə tədbirlər həyata keçirib.

Zəngilan Rayon İcra Hakimiyyətinin başçısı Ramiz Həsənov vurğulayıb ki, Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan dinamik inkişaf edən, beynəlxalq mövqelərini davamlı şəkildə möhkəmləndirən dövlətə çevrilib. Onun sözlərinə görə, Azərbaycanın qazandığı şanlı zəfərlər nəticəsində ölkəmizin ərazi bütövlüyü və dövlət suverenliyi tam bərpa olunub. Bildirilib ki, azad edilmiş ərazilərdə Böyük Qayıdış Proqramı çərçivəsində genişmiqyaslı quruculuq işləri həyata keçirilir, Zəngilan rayonunda da yeni yaşayış məntəqələri salınır, müasir infrastruktur yaradılır və əhalinin doğma yurda qayıdışı təmin olunur.

Milli Məclisin deputatı İmamverdi İsmayılov isə YAP-ın xalqın inam və etimad ünvanı kimi formalaşdığını diqqətə çatdırıb. O bildirib ki, 44 günlük Vətən müharibəsində və 2023-cü ilin antiterror tədbirlərində əldə olunan möhtəşəm qələbələr dövlətimizin qüdrətini bütün dünyaya nümayiş etdirib. “Azərbaycan xalqı məhz öz Liderinin ətrafında dəmir yumruq kimi birləşərək milli birlik və həmrəylik nümayiş etdirir”, - deyə deputat vurğulayıb.

Çıxış edən partiya veteranları Almas Osmanova və Söhbət Musayev, həmçinin “Nərimanov rayonu, Ələsgər Qayıbov küçəsi” ərazi partiya təşkilatının sədri Kənan İmaməliyev Azərbaycanın yeni hədəfləri uğurla reallaşdıracağına əminliklərini ifadə ediblər.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Rəşad Abbaszadə isə Cənubi Qafqaz regionunda yeni reallıqların yarandığını, partiya üzvlərinin bu prosesləri diqqətlə izləyərək üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməli olduqlarını diqqətə çatdırıb.

Konfransda YAP Zəngilan rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş hesab edilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Yeni Azərbaycan Partiyası inam və etimad ünvanıdır






Sentyabrın 14-də Yeni Azərbaycan Partiyası (YAP) Nizami rayon təşkilatının XI konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Nizami rayon təşkilatının sədr müavini Rəşadət Xalıqov hesabat məruzəsi ilə çıxış edib. Bildirilib ki, YAP Nizami rayon təşkilatı hesabat dövründə fəaliyyətini partiyanın Nizamnaməsi və Proqramından irəli gələn vəzifələr, eləcə də yerli təşkilatlar haqqında Əsasnamənin müddəaları əsasında təşkil edib. Ötən müddət ərzində ərazi partiya təşkilatları arasında fəaliyyətin əlaqələndirilməsi, üzvlərlə işin səmərəliliyinin artırılması, təşkilati proseslərin daha çevik və məqsədyönlü şəkildə qurulması istiqamətində ardıcıl tədbirlər həyata keçirilib. Eyni zamanda, partiya üzvlərinin ictimai-siyasi proseslərdə iştirakının genişləndirilməsi, yeni üzvlərin partiya sıralarına cəlb edilməsi, gənclərin və qadınların ictimai fəallığının artırılması diqqət mərkəzində saxlanılıb.

Milli Məclisi Sədrinin birinci müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini Əli Əhmədov çıxışında YAP-ın ölkənin ictimai-siyasi həyatındakı mövqeyinə, Ulu Öndər Heydər Əliyevin siyasi irsinə, partiyanın keçdiyi inkişaf yoluna və qarşıda duran vəzifələrə toxunub. O vurğulayıb ki, Yeni Azərbaycan Partiyası yarandığı gündən ümumxalq partiyası kimi nüfuz qazanıb, sıralarını kəmiyyət və keyfiyyət baxımından daha da möhkəmləndirib.

Həmçinin qeyd olunub ki, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasət müasir çağırışlar fonunda Azərbaycanın davamlı inkişafını təmin edir.

Nizami Rayon İcra Hakimiyyətinin başçısı Coşqun Cəbrayılov Yeni Azərbaycan Partiyasının Azərbaycanın ictimai-siyasi və sosial-iqtisadi inkişafındakı rolundan danışıb. O, Ümummilli Liderin ideyaları və zəngin dövlətçilik irsi əsasında inkişaf yolunda qətiyyətlə addımlayan müasir Azərbaycanın tarixinin ən qüdrətli dövrünü yaşadığını deyib. C.Cəbrayılov qeyd edib ki, ölkəmizin müasir mənzərəsi, dünyanın siyasi sistemində yeri və rolu xalqımızda böyük ruh yüksəkliyi, gələcəyə böyük inam yaradır.

YAP Nizami rayon təşkilatına uzun illər rəhbərlik etmiş, Milli Məclisin sabiq deputatı Sədaqət Vəliyeva, "Azər Manafov küçəsi 1" ünvanı üzrə ərazi partiya təşkilatının sədri, SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin rəisi Fuad Süleymanov, partiya veteranı Edilman Məmmədov, "Şirin Mirzəyev küçəsi 110" ünvanı üzrə ərazi partiya təşkilatının sədr müavini, şəhid Zakir Cəfərovun anası Kəmalə Abdullayeva qeyd ediblər ki, partiya üzvlərinin ictimai-siyasi proseslərdə fəallığı dövlət siyasətinin reallaşdırılması və qarşıya qoyulan məqsədlərin həyata keçirilməsində mühüm rol oynayır.

Konfransda YAP Nizami rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Tarixi nailiyyətlərdən yeni hədəflərə doğru





Sentyabrın 14-də Yeni Azərbaycan Partiyası (YAP) Masallı rayon təşkilatının XI konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev hesabat məruzəsi ilə çıxış edib. O, ötən dövr ərzində təşkilat tərəfindən həyata keçirilən işlər, rayonda reallaşdırılan ictimai-siyasi tədbirlər və partiya üzvlərinin ictimai proseslərdə fəal iştirakı barədə məlumat verib. Bildirilib ki, təşkilatın fəaliyyəti partiyanın qarşıya qoyduğu məqsəd və vəzifələrə uyğun olaraq davam etdirilib. Rayon təşkilatının ötən müddət ərzində sıralarını genişləndirdiyini deyən S.Əliyev qeyd edib ki, əldə olunan nailiyyətlərlə yanaşı, növbəti mərhələdə də qarşıda məsuliyyətli vəzifələr dayanır.

Masallı Rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən ardıcıl və məqsədyönlü siyasət, sosial-iqtisadi inkişaf, genişmiqyaslı islahatlar və reallaşdırılan sosial layihələr barədə danışıb. O bildirib ki, son illər görülən işlər ölkənin hərtərəfli inkişafına, əhalinin sosial rifahının yüksəldilməsinə və regionların inkişafına mühüm töhfə verib.

Milli Məclisin deputatı Məşhur Məmmədov Ulu Öndər Heydər Əliyevin fikirlərinə istinad edərək, Yeni Azərbaycan Partiyasının dünənin, bu günün və gələcəyin partiyası olaraq fəaliyyət göstərdiyini deyib. Onun sözlərinə görə, torpaqlarımızın işğaldan azad olunması və Azərbaycanın ərazi bütövlüyünün, eləcə də suverenliyinin tam bərpa edilməsi partiyanın uğurlu siyasi fəaliyyətinin əsas nəticəsidir.

Daha sonra Rafiq Əlihəsənov adına 1 saylı tam orta məktəb ərazi partiya təşkilatının sədri, şəhid anası Mehriban Sultanova, Masallı Dövlət Aqrar İnkişaf Mərkəzi ərazi partiya təşkilatının sədri Seymur Nuriyev, Masallı rayon Heydər Əliyev Mərkəzinin direktoru Dilbər İbayeva, Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyi Masallı filialının sədri Nahid Rəhimov, Mahmudavar ərazi partiya təşkilatının sədri Kinəxanım Əliyeva çıxış edərək Azərbaycanın müstəqillik dövründə qazandığı bütün nailiyyətlərdə YAP-ın imzasının olduğunu deyiblər.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Əli Axundov bildirib ki, Yeni Azərbaycan Partiyası bütün dövrlərdə xalqın iradəsini və dövlətçilik maraqlarını əsas götürüb. O qeyd edib ki, partiyanın ardıcıl və məqsədyönlü fəaliyyəti onun cəmiyyət arasında nüfuzunun daha da möhkəmlənməsinə, xalqın YAP-a olan inamının davamlı şəkildə artmasına səbəb olub.

Konfransda YAP Masallı rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII Qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Sabitlik və inkişaf gələcəyə inam yaradır





Sentyabrın 14-də Yeni Azərbaycan Partiyası (YAP) Kürdəmir rayon təşkilatının XII konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Kürdəmir rayon təşkilatının sədri Ayaz Cəbrayılov hesabat məruzəsi ilə çıxış edib. O qeyd edib ki, hesabat dövründə təşkilat qarşıya qoyulan vəzifələrin icrası istiqamətində məqsədyönlü fəaliyyət göstərib. Bu müddətdə üzvlərin ictimai-siyasi fəallığının artırılması, partiya sıralarının genişləndirilməsi və ərazi partiya təşkilatları arasında işbirliyinin gücləndirilməsi diqqət mərkəzində olub.

Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Elşən Həsənli vurğulayıb ki, Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi kurs Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Həyata keçirilən ardıcıl və məqsədyönlü siyasətin nəticəsi olaraq Azərbaycan ərazi bütövlüyünü və suverenliyini tam bərpa edərək dövlətçilik tarixinin ən mühüm nailiyyətlərindən birinə imza atıb. Yeni Azərbaycan Partiyası da ölkənin ictimai-siyasi həyatında fəal iştirak edir və həyata keçirdiyi məqsədyönlü fəaliyyətlə cəmiyyətin geniş dəstəyini qazanıb.

YAP İdarə Heyətinin üzvü Tofiq Cahangirov Yeni Azərbaycan Partiyasının keçdiyi inkişaf yolundan, partiyanın ölkənin ictimai-siyasi həyatında oynadığı mühüm roldan və Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi tarixi nailiyyətlərdən danışıb. Rayon təşkilatının hesabat dövründəki fəaliyyətini müsbət dəyərləndirən T.Cahangirov qarşıdakı dövrdə təşkilata uğurlar arzulayıb.

Çıxış edən şəhid anası Simuzər Bağıyeva, "Bakı prospekti 20" ünvanı üzrə ərazi partiya təşkilatının sədri, "Kürdəmir Gənclər Evi" Sosial Xidmət Müəssisəsinin direktoru Nicat Ağarəhimov bildiriblər ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam təmin edilib. Ölkəmiz yeni hədəflərə doğru inamla irəliləyir.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Fəsli Nəbiyev Yeni Azərbaycan Partiyasının Kürdəmir rayon təşkilatının qarşıya qoyulan vəzifələrin səmərəli icrası istiqamətində məqsədyönlü iş apardığını deyib.

Konfransda YAP Kürdəmir rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# YAP Ağdam rayon təşkilatının XII konfransı keçirilib





Sentyabrın 14-də Yeni Azərbaycan Partiyası (YAP) Ağdam rayon təşkilatının XII konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Ağdam rayon təşkilatının sədri Mansur Quliyev hesabat məruzəsi ilə çıxış edib. Qeyd olunub ki, YAP Ağdam rayon təşkilatı ötən müddət ərzində qarşıya qoyulan vəzifələrin icrası istiqamətində fəaliyyətini ardıcıl olaraq davam etdirib. Yeni Azərbaycan Partiyasının 2021-ci il martın 5-də keçirilən VII qurultayından sonra partiyanın təşkilati strukturunun təkmilləşdirilməsi, ərazi partiya təşkilatlarının fəaliyyətinin səmərəli təşkili, üzvlərlə işin keyfiyyətinin artırılması və müasir çağırışlara uyğun fəaliyyət mexanizmlərinin formalaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilib.

Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov çıxışında rayonda həyata keçirilən genişmiqyaslı sosial-iqtisadi layihələr, əhalinin sosial rifahının yüksəldilməsi və yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər barədə danışıb. O vurğulayıb ki, ölkəmiz Prezident İlham Əliyevin rəhbərliyi ilə tərəqqi və Zəfər yolunda inamla irəliləyir, həyata keçirilən ardıcıl və məqsədyönlü dövlət siyasəti regionların hərtərəfli inkişafı üçün geniş imkanlar yaradır.

YAP Veteranlar Şurasının üzvü, Milli Məclisin deputatı Elman Məmmədov Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan Yeni Azərbaycan Partiyasının hər zaman xalqa xidmət prinsipini prioritet saydığını vurğulayıb. O, partiyanın Azərbaycanın davamlı inkişafının təmin edilməsində və dövlətçilik ənənələrinin möhkəmləndirilməsində roluna diqqət çəkib. Qeyd olunub ki, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz misilsiz nailiyyətlərə imza atır.

9 saylı ərazi partiya təşkilatının sədri Xanım Əliyeva və 15 saylı ərazi partiya təşkilatının sədri Bəhram Qurbanov Yeni Azərbaycan Partiyasının ictimai-siyasi proseslərdə fəal mövqeyi ilə seçildiyini qeyd ediblər.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Rəşad Abbaszadə partiyanın VII qurultayından sonra görülən işlərdən və qarşıda duran əsas vəzifələrdən danışıb.

Konfransda YAP Ağdam rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Azərbaycanın tərəqqi yolu yeni uğurlarla davam edir





Sentyabrın 14-də Yeni Azərbaycan Partiyası (YAP) Qəbələ rayon təşkilatının XI konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Qəbələ rayon təşkilatının sədri Abil Ağasəfov hesabat məruzəsi ilə çıxış edib. O bildirib ki, 2021-ci ildə keçirilən VII qurultay partiyanın müasir çağırışlara uyğun fəaliyyətinin daha da gücləndirilməsi baxımından mühüm mərhələ olub. YAP Qəbələ rayon təşkilatı da bu siyasi kursun həyata keçirilməsinə töhfə vermək məqsədilə fəaliyyətini ardıcıl şəkildə gücləndirib. Partiya üzvləri ilə iş təşkili, maarifləndirici tədbirlərin keçirilməsi və sosial layihələrin həyata keçirilməsi əsas fəaliyyət istiqamətlərini təşkil edib.

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev Yeni Azərbaycan Partiyasının ölkənin ictimai-siyasi həyatında mühüm rol oynadığını və cəmiyyətin müxtəlif təbəqələrini öz ətrafında birləşdirdiyini qeyd edib. O bildirib ki, rayonda həyata keçirilən sosial-iqtisadi layihələr, abadlıq və quruculuq tədbirləri, eləcə də əhalinin sosial rifahının yüksəldilməsi istiqamətində görülən işlər rayonun inkişafına və vətəndaşların gündəlik həyat şəraitinin yaxşılaşdırılmasına mühüm töhfə verir.

Milli Məclisin deputatı Eyvaz Qurbanov qeyd edib ki, Yeni Azərbaycan Partiyasının yaradılması müasir müstəqil Azərbaycanın şanlı siyasi tarixinin mühüm səhifələrindən birini təşkil edir. O vurğulayıb ki, yarandığı gündən etibarən YAP ölkənin ictimai-siyasi həyatında mühüm rol oynamaqla yanaşı, bu gün təkcə Azərbaycanın deyil, regionun nüfuzlu siyasi təşkilatlarından biri kimi fəaliyyət göstərir.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Xaqani Tağıyev Yeni Azərbaycan Partiyasının VII qurultayından sonra görülən işlərdən danışıb. Qeyd edib ki, YAP Qəbələ rayon təşkilatı ərazi partiya təşkilatları ilə əlaqələrin daha da genişləndirilməsi, qarşılıqlı fəaliyyətin gücləndirilməsi və işin səmərəli təşkili istiqamətində məqsədyönlü tədbirlər həyata keçirir.

Daha sonra Təhsil işçiləri ərazi partiya təşkilatının sədri Arifə Bayramova, Səhiyyə işçiləri ərazi partiya təşkilatının sədri Ceyhun Əhmədov, Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi ərazi partiya təşkilatının sədri Reyhan Məmmədova, Vətən müharibəsi qazisi, Bunud ərazi partiya təşkilatının sədri Müşfiq Paşayev, partiya veteranı Azad Məmmədov, şəhid atası Cəlil Səfərçinov çıxış ediblər.

Konfransda YAP Qəbələ rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Şəkillərdən kənarda Lənkəran: İlk cənub şəhərində

Budəfəki səfərimiz Azərbaycanın cənub bölgəsinin ən gözəl guşələrindən biri - xan Lənkərana idi. Həmkarlarımla birlikdə Dövlət Turizm Agentliyinin dəstəyi ilə yola düşdük. Mənim üçün bu səfərin başqa bir özəlliyi də vardı - ilk dəfə idi cənub rayonlarına ayaq basırdım.

İndiyədək yalnız sosial şəbəkələrdə şəkillərini gördüyüm, haqqında yazılar oxuduğum o yaşıllıqları, dağları, çay plantasiyalarını və tarixi məkanları bu dəfə canlı görəcəkdim. Açığı, səfərə yola düşərkən məni ən çox maraqlandıran da məhz bu idi: ekranda gördüyüm Lənkəranla real həyatda qarşılaşanda məndə hansı təəssürat yaranacaq?

Cənuba doğru hərəkət etdikcə mənzərənin dəyişməsi də diqqət çəkirdi. Şəhərin səs-küyündən uzaqlaşdıqca yolboyu sıx yaşıllıqlar, rütubətli iqlimin yaratdığı fərqli təbiət mənzərələri və Talış dağlarının əhatəsində yerləşən kəndlər bu səfərin hələ başlanğıcdan fərqli olacağından xəbər verirdi.

## İlk ünvan - Xan evi

Səfərimizin ilk ünvanı Lənkəran Tarix-Diyarşünaslıq Muzeyi oldu. Bu gün "Xan evi" kimi tanınan nadir memarlıq nümunəsi Lənkəran xanı Mirəhməd xan tərəfindən həyat yoldaşı Tuğra xanımın şərəfinə 1912-1913-cü illərdə inşa etdirilib. Bir əsrdən artıq yaşı olan bina zamanın izlərini qorusa da, burada yaradılan müasir infrastruktur tarixi məkanın bu gün də turistlər üçün rahat şəkildə ziyarət edilməsinə imkan verir.

1978-ci ildən "Xan evi" Lənkəran Tarix-Diyarşünaslıq Muzeyi kimi fəaliyyət göstərir. Üç mərtəbədən və 12 otaqdan ibarət muzeydə Lənkəranın qədim tarixini, mədəniyyətini, milli-mənəvi dəyərlərini və bu gününü əks etdirən minlərlə eksponat qorunur. Muzeyin ekspozisiyası 6 bölmədən ibarətdir.

Burada tarix sadəcə vitrinlərdə nümayiş etdirilmir. Sanki hər otaq Lənkəranın keçmişindən bu günə uzanan ayrı bir hekayə danışır. Binanın memarlığı, otaqların quruluşu, qorunub saxlanılan əşyalar və eksponatlar bir araya gələndə insan özünü bir anlıq başqa dövrdə hiss edir.

Mənim üçün isə səfərin ilk dayanacağının məhz "Xan evi" olması xüsusi maraqlı idi. Çünki Lənkəranı tanımağa onun tarixindən başlamaq, daha sonra bu şəhərin bu gününü və təbiətini kəşf etmək səfərə tamam başqa məna verirdi.

## Lənkəranın bambuk sirri

Növbəti dayanacağımız isə ilk baxışdan heç kimin ağlına gəlməyəcək bir məkan oldu - bambuk bağı.

Lənkəran rayonunun Talışlı kəndində yaşayan Eynulla Cəlalov 30 ildən artıqdır ki, bu ərazidə bambuk yetişdirir. Həyətyanı sahəsində mindən çox bambuk ağacı böyüdən Eynulla Cəlalov Azərbaycanda bu işlə məşğul olan nadir şəxslərdəndir.

Bambukun necə sürətlə böyüdüyünü eşitmək bir yana, onu canlı görmək tamam başqa hissdir. Hind qamışı kimi də tanınan bambuk dünyanın ən sürətlə böyüyən bitkilərindən biri hesab olunur. Ayrı-ayrı növləri 27 metrədək hündürlüyə çata bilir.

Bağa daxil olduğumuz ilk andan diqqəti çəkən də məhz bu bitkilərin sıxlığı və hündürlüyü idi. Bir-birinə qarışan bambuk gövdələri bağın içində fərqli bir atmosfer yaradırdı. Sanki Lənkəranın subtropik təbiətinin içində kiçik, yaşıl bir dünya qurulmuşdu.

Amma bu bağ sadəcə yaşıllıqdan ibarət deyil. Eynulla Cəlalov üçün bambuk həm də sənətinin əsas xammalıdır. Usta yetişdirdiyi bambuklardan stol, stul, kresło, kitab rəfi və müxtəlif əl işləri hazırlayır.

Beləcə, adi bir həyətyanı sahə həm qeyri-adi bağa, həm də əl əməyinin nümayiş olunduğu kiçik emalatxanaya çevrilib.

Burada ən maraqlı məqamlardan biri də təbiətin insan əməyinə necə çevrildiyini görmək idi. Torpaqda yetişən sadə bir bitki ustanın əlində həm faydalı əşyaya, həm də dekorativ sənət nümunəsinə çevrilir.









## Lənkərana gəlib çay içməmək olarmı?

Lənkəran deyəndə ağlımıza ilk gələnlərdən biri, şübhəsiz, çaydır. Ona görə də çay plantasiyasına baş çəkmədən bu səfəri təsəvvür etmək mümkün deyildi.

Növbəti ünvanımız Lənkəran rayonunun İstisu qəsəbəsində yerləşən "Nilado" çay plantasiyası oldu.

Dövlət Turizm Agentliyinin təşkilatçılığı ilə keçirilən iki günlük mediatur çərçivəsində jurnalistlər burada həm çay plantasiyasını gəzib, həm də çayın emal prosesini yaxından izləmək imkanı əldə etdilər.

Yaşıl çay kollarının arasında gəzdikcə Lənkəranın çayçılıq ənənəsinin bu bölgənin həyatında nə qədər mühüm yer tutduğunu daha yaxşı hiss etmək olurdu. Çay burada sadəcə gündəlik içki deyil, həm də bölgənin tanınmasında mühüm rol oynayan bir dəyərdir.

Burada 20-dən çox müxtəlif çay növünü dadmaq, bəyənilən məhsulları, o cümlədən "Qarabağ" və "Xan" çay kolleksiyalarını, təbii gül çaylarını almaq mümkündür.

Amma mənim üçün bu məkanın ən maraqlı tərəfi yalnız çayın dadı deyildi. Yaşıl çay bağlarının arasında gəzmək, Lənkəranın təbiətini bu mənzərənin içindən seyr etmək səfərə tamam başqa ovqat qatırdı.

Turistlər burada milli geyimlərdə fotosessiya da etdirə, çay bağlarında gəzə və hətta çay yığımında iştirak edə bilərlər. Yəni burada çay sadəcə fincana süzülmür - onun torpaqdan süfrəyə qədər uzanan bütün yolunu görmək mümkündür.

## Arıların dünyasında

Səfərimizin növbəti dayanacağı isə daha fərqli və bir qədər də qeyri-adi idi - arı muzeyi.

Lənkəranda fəaliyyət göstərən "Balçı Səyavuş" arıçılıq təsərrüfatında arıçılıq yalnız ənənəvi üsullarla deyil, müasir yanaşmalarla da birləşdirilib.

Təsərrüfatın rəhbəri Səyavuş Yaqubovun sözlərinə görə, burada arı məhsullarının müxtəlif istehsal növləri ilə yanaşı, apiterapiya - arı məhsullarından müalicə məqsədilə istifadə istiqamətində də fəaliyyət göstərilir.

Muzeydə hətta arı ilk apiterapiya evi fəaliyyət göstərir. Bu isə məkanı adi arıçılıq təsərrüfatından fərqləndirən əsas xüsusiyyətlərdəndir.

Burada texnologiya da arıçılığın bir parçasına çevrilib. Sahibkarın sözlərinə görə, arı pətəklərinin altına yerləşdirilən xüsusi smart tərəzilər vasitəsilə pətəyin çəkisi, rütubət və temperatur barədə məlumatları məsafədən əldə etmək mümkündür. Sistem məlumatları SMS vasitəsilə ötürür.

Bu məqam xüsusilə maraqlı idi. Çünki ənənəvi arıçılıq təsərrüfatında müasir texnologiyaların tətbiqi həm işin idarə olunmasını asanlaşdırır, həm də pətəklərin vəziyyətini uzaqdan izləməyə imkan verir.

Səyavuş Yaqubov həmçinin müxtəlif layihələrdə iştirak etdiklərini, KOBİA-nın arıçılıqla bağlı qrant müsabiqəsində qalib gəldiklərini və "Şəhərdən kəndə" layihəsi çərçivəsində arıçılıq muzeyini təqdim etdiklərini bildirib.

İki günlük səfər ərzində Lənkərana yalnız turist gözü ilə baxmadım. Burada tarixlə bu günün, təbiətlə insan əməyinin necə bir-birinə qarışdığını gördüm.

Bir tərəfdə əsrlik Xan evi, digər tərəfdə bambuk bağında öz sənətini yaşadan bir usta, bir yanda Lənkəranın əvəzolunmaz çay plantasiyaları, digər tərəfdə arıçılığı müasir texnologiyalarla birləşdirən sahibkar...

Fərqli ünvanlar, fərqli insanlar, fərqli hekayələr. Amma hamısının ortaq bir cəhəti vardı - Lənkəranın özünəməxsusluğu.

Bu səfər mənim üçün həm yeni bir bölgə ilə tanışlıq, həm də Azərbaycanın turizm potensialının nə qədər rəngarəng olduğunu yaxından görmək imkanı oldu.

Və etiraf edim ki, cənuba ilk səfərim son səfərim olmayacaq. Çünki Lənkəran bir dəfə gəlib görülüb keçiləcək yerlərdən deyil. Burada hər gəlişdə kəşf ediləcək yeni bir ünvan, dinləniləcək yeni bir hekayə və yadda qalacaq yeni bir mənzərə var.

*Havar Şəfiyeva*

# Yəməndə vəziyyət qarışdı

## Husilər yenidən aktivləşir - Bab əl-Məndəb bağlanarsa...

Yaxın Şərqdə daha bir böhran yenidən alovlanır. Belə ki, Yəməndə kövrək atəşkəsə söykənən sükut pozulmaqdadır. Sentyabrın 10-da husi qiyamçıları bir çoxunun gözləmədiyi halda son illərin ən böyük strateji üstünlüyünə nail olublar. Onlar Qırmızı dənizdə Moha liman şəhərini, Yəmənin Qırmızı dənizdəki adalarını, yaxud 2,5 min kv. km ərazini ələ keçirməklə regionda gərginliyi artırıblar. Bir həftədən artıq davam edən döyüşlər nəticəsində hərbçilər və silahlı birləşmələrin döyüşçüləri də daxil olmaqla 500-dən çox adam ölüb, 18,5 min nəfər evlərini tərk etmək məcburiyyətində qalıb.

## Son bir həftədə artan gərginlik...

İddia olunur ki, əvvəlcə Səudiyyə Ərəbistanı Yəməndə genişmiqyaslı döyüş əməliyyatlarına başlayıb - husilər Səudiyyə Ərəbistanını həbsxanaya zərbə endirməkdə ittiham ediblər. Onların məlumatına görə, hadisə nəticəsində 32 nəfər həlak olub, çoxlu məhbus dağıntılar altında qalıb. 11 sentyabrda husilərin hərbi sözçüsü Yəhya Saria Ənsar Allah qüvvələrinin Səudiyyə qüvvələrini qovmaq üçün Yəmənin qərb sahilində əməliyyat başlatdığını bildirib. O, əməliyyatın "son bir neçə ildə Səudiyyə Ərəbistanı tərəfindən dəstəklənən qüvvələrin qərb sahilindəki sakinlərə, kəndlərə və ərazilərə davamlı hücumları" ilə əlaqəli olduğunu iddia edib. 12 sentyabrda Ənsar Allah qüvvələrinin siyasi bürosunun üzvü Xuzam əl-Əsəd husilərin Bab əl-Məndəb boğazı ilə həmsərhəd olan qərbi Yəməndəki ərazilər üzərində nəzarəti ələ keçirmək əməliyyatını başa vurduğunu təsdiqləyib.

Husilər qurudan irəliləyişləri ilə yanaşı, Mohaya girişi kəsmək və strateji əhəmiyyətli Bab əl-Məndəb boğazına yaxın ərazilərə doğru irəliləmək üçün Qırmızı dəniz sahillərinə və Taizin ətrafına raket və pilotsuz təyyarələrlə hücumlar etməyə başlayıblar. Qeyd edək ki, Ənsar Allah hərəkatı hücumlara görə məsuliyyəti öz üzərinə götürsələr də, ABŞ kəşfiyyat mənbələri zərbələrin İran tərəfdarı qruplar tərəfindən İraqdan buraxılan dronlar vasitəsilə həyata keçirildiyi ehtimalını istisna etməyib.

## Səudiyyə Ərəbistanına hücum - Husilər məsuliyyəti üzərinə götürür

Artıq bir neçə gündür ki, gərginlik artmaqda davam edir. Ənsar Allah (Husilər) Xamis Muşaytdakı Kral Xalid Hava Bazasına ballistik raketlər və PUA istifadə edərək bir sıra zərbələr endirdiyini bəyan edib. "Yəmən silahlı qüvvələri Xamis Muşaytdakı Kral Xalid Hava Bazasında təyyarə anqarları, radar sistemləri, uçuş-enmə zolaqları, sursat anbarları və digər hədəflər də daxil olmaqla hərbi qurğuları və infrastrukturu hədəf alan genişmiqyaslı əməliyyat həyata keçiriblər", - deyə husilərin hərbi sözçüsü Yəhya Saria Telegram-da bildirib. O, əlavə edib ki, hücumda "onlarla ballistik raket və PUA" istifadə edilib.

Son bir ay ərzində hökumətyönlü qüvvələr Yəmən üsyançı hərəkatı Ənsar Allah (husilər) tərəfdarları ilə döyüşlərdə 500 döyüşçü itirib, təxminən 1500 döyüşçü yaralanıb. Bu rəqəmlər rəsmi mənbələr tərəfindən təsdiqlənib. Yəmən dövləti isə Moha bölgəsində husilərin hərbi texnikasının məhv edildiyini açıqlayıb. "9 avqust - 10 sentyabr tarixləri arasında cənub-qərbi Yəmən sahillərində gedən döyüşlər zamanı 500 müqavimət döyüşçüsü öldürülüb, 1500 nəfər yaralanıb" - bunu Əl-Cəzirə kanalı yayıb. Bildirilib ki, bu bölgədəki husi hücumları İran İslam İnqilabı Keşikçiləri Korpusu və müttəfiqlərinin dəstəyi ilə həyata keçirilib. Hökumət sözçüsü əlavə edib ki, müqavimət bölmələri onları mühasirəyə almaq planını pozmaq üçün yeni müdafiə xətlərinə köçürülüb.

Saudi pipeline that bypasses Strait of Hormuz




Source: Global Energy Monitor

## Qlobal enerji bazarına zərbə...

Yəməndə başlanan döyüşlər qlobal enerji bazarına da mənfi təsirlər göstərməkdədir. Belə ki, "Reuters" mənbələrə istinadən xəbər verir ki, Səudiyyə Ərəbistanı bir neçə gün ərzində Şərq-Qərb neft kəmərinə xidməti bərpa etməsə, neft ixracı dalana dirənə bilər. Nəticədə, qlobal bazar tədarükün 4 faizə qədərini itirə bilər. Daha əvvəl Səudiyyə Ərəbistanının Energetika Nazirliyi bir neçə hücumdan sonra Mədinə və Ər-Riyad yaxınlığında Şərq-Qərb neft kəmərinin profilaktik olaraq bağlandığını elan etmişdi.

"Reuters"-in bir mənbəsi təmir işlərinin beş-altı həftə çəkə biləcəyini bildirib. Başqa bir mənbə isə xidmətin daha tez bərpa oluna biləcəyini qeyd edib. Agentliyin məlumatına görə, Yanbu limanındakı neft ehtiyatları ixrac tələbatını beş-yeddi gün ərzində ödəmək üçün kifayətdir.

1200 kilometrlik boru kəməri Şərq əyalətindəki yataqlardan Qırmızı dəniz sahilindəki Yanbu limanına neft nəql edir. Onun ötürmə gücü gündə 7 milyon barelə çatır.

Asahi isə yazır ki, Səudiyyə Ərəbistanı neftinin Asiyaya çatdırılma müddəti 2,5 dəfə arta bilər. Yapon nəşri qeyd edib ki, Bab əl-Məndəb boğazı bağlanarsa, gediş-gəliş təxminən 100 gün çəkəcək. Belə ki, Yaxın Şərqdən Asiyaya neft nəqlinin ənənəvi marşrutu olan Hörmüz boğazından keçən uçuş 40 gün ərzində gedib-gəlirdi. Alternativ ola biləcək Bab əl-Məndəb boğazından keçən marşrut təxminən eyni vaxt aparır - 40- 50 gün aralığında. Hörmüz boğazındakı məlum vəziyyət, ardınca isə Bab əl-Məndəb boğazının bağlanması halında yeganə alternativ marşrut kimi önə çıxan Süveyş kanalı və Ümid burnundan keçən marşrutun gediş-gəlişi təxminən 100 gün çəkəcək. Asahi qeyd edir ki, bu, qaçılmaz olaraq daha yüksək nəqliyyat xərclərinə səbəb olacaq.

## Bəzi ölkələr gözləmə mövqeyindədir...

Vəziyyətə bəzi ölkələr də reaksiya nümayiş etdiriblər. Rusiya bəyan edib ki, əhəmiyyətli dərəcədə gərginləşən situasiya izlənəcək. Bu barədə Rusiya Federasiyası Prezidentinin mətbuat katibi Dmitri Peskov bəyan edib: "Gözləyək, görək vəziyyət necə inkişaf edəcək. Hazırda vəziyyət ciddi şəkildə qeyri-sabitləşib və əhəmiyyətli dərəcədə gərginləşmə ilə üzləşib. İndi ən vacib şey vəziyyəti sabitləşdirməkdir".

"Reuters" isə ABŞ ilə bağlı qiymətləndirmə yayıb. Bildirilir ki, Ənsar Allah üsyançı hərəkatının bir hissəsi olan Husilərə qarşı potensial ABŞ əməliyyatı Vaşinqtondan əhəmiyyətli qüvvələr cəlb etməyi tələb edir - hesabatda qeyd olunur ki, "ABŞ rəsmilərinin fikrincə, husilərə qarşı mübarizə üçün əhəmiyyətli dəniz və hava qüvvələri resursları, eləcə də ötən ildən bəri yerini dəyişən Husi mövqelərinin yerini müəyyən etmək zərurəti nəzərə alınmaqla ABŞ kəşfiyyat aktivlərinin yönləndirilməsi tələb olunacaq. Agentlik vurğulayır ki, "Əgər ABŞ Hərbi Dəniz Qüvvələri və Hərbi Hava Qüvvələrinin gəmiləri Husi dronlarını və raketlərini vurmağa məcbur edilərsə, bu, ABŞ-ın silah ehtiyatlarını və tutucu raketlərini daha da tükəndirə bilər".

ABŞ Prezidenti Donald Trampın sözlərinə görə, husilər Vaşinqtona ABŞ-la döyüşmək istəmədiklərinə dair zəmanət veriblər. Daha əvvəl Axios mənbələrə istinadən xəbər vermişdi ki, Səudiyyə Ərəbistanının vəliəhd şahzadəsi Məhəmməd bin Salman Əl-Səud 10 sentyabrda Trampa iki dəfə zəng edərək ondan husilərin mövqelərinə zərbə endirməsini istəyib. ABŞ prezidenti Səudiyyə Ərəbistanına birbaşa hərbi yardımdan imtina edərək bildirib ki, ABŞ-ın bu məhələdəki prioriteti İranla qarşıdurma və Hörmüz boğazını açmaqdır.

**P.İSMAYILOV**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**






# Həyəcan, ümid və yeni başlanğıclar

## Yeni dərs ili başladı...

Bu gündən etibarən küçələrdə məktəbli formaları geyinmiş şagirdlər, valideynlərin tələsik addımları və illərdir dəyişməyən doğma həyəcanı görürük. Çünki məktəb qapıları yenidən açılır. Bir tərəfdə ilk dəfə məktəbə qədəm qoyacaq balaca fidanların heyrətli baxışları, digər tərəfdə illərdir bu qapıdan keçən şagirdlərin tanış sevinci var. 15 sentyabr "Bilik Günü" Azərbaycan üçün məhz belə duyğuların, ümidlərin və yeni başlanğıcların günüdür.

"Bilik Günü" təkcə dərs ilinin başlanması demək deyil. Bu gün həm də insanın gələcəyə doğru atdığı ilk addımların rəmzidir. Hər böyük arzunun, hər uğurlu gələcəyin arxasında vaxtilə bir məktəb partası, bir müəllim sözü, bir kitab səhifəsi dayanır. Bu baxımdan məktəb insan həyatında xüsusi yeri olan ünvanlardan biridir. Burada yalnız oxumaq və yazmaq öyrənilmir. Məktəb uşağa düşünməyi, sual verməyi, dinləməyi, dostluq etməyi, məsuliyyət daşımağı və ən əsası həyata inamla addımlamağı öyrədir. Bəzən isə müəllimin söylədiyi sadə bir cümlə şagirdin bütün həyatına istiqamət verir.

**Bu il Bakıda neçə şagird və müəllim var?**

Bu baxımdan 15 sentyabrın hər bir ailə üçün özünəməxsus mənası var. İlk dəfə məktəbə gedən uşağın həyəcanı, övladının əlindən tutub məktəbə gətirən valideynin qüruru, sinif otağında şagirdlərini gözləyən müəllimin məsuliyyəti - bu mənzərənin hər detalında gələcəyə böyük bir ümid yaşayır.

2004-cü ilə kimi Azərbaycanda 1 sentyabr "Bilik Günü" sayılırdı və dərslər həmin tarixdə başlayırdı. Prezident İlham Əliyevin 21 avqust 2004-cü ildə imzaladığı fərmanla ölkəmizdə "Bilik Günü"nün tarixi dəyişdirilib və 15 sentyabrda qeyd olunması qərara alınıb.

## İlk dərs belə olacaq...

Bu il ümumi təhsil müəssisələrinin II-XI siniflərində ilk dərs "Şəhərsalma və Memarlıq İli" mövzusuna həsr olunacaq. Bu barədə Elm və Təhsil Nazirliyindən məlumat verilib. Qeyd edilib ki, bu, Prezidentin müvafiq sərəncamına əsasən, 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ilə əlaqədar həyata keçiriləcək.

Yeni tədris ilində Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyində fəaliyyət göstərən ümumi təhsil müəssisələrində ümumilikdə, 504 413 şagirdin təhsil alacağı gözlənilir. Bu barədə BŞTİ-dən məlumat verilib.

Bildirilib ki, BŞTİ-nin tabeliyindəki ümumi təhsil məktəblərinin I sinfində 39 999, IX sinfində 49 167, XI sinfində 39 479, XII sinfində 99 şagirdin təhsil alacağı proqnozlaşdırılır.

Paytaxtdakı ümumi təhsil müəssisələrinin məktəbəhazırlıq qruplarına 17 863 beşyaşlının cəlb olunması nəzərdə tutulur. BŞTİ-nin tabeliyində fəaliyyət göstərən məktəbəqədər təhsil müəssisələrinə isə 35 043 uşaq cəlb olunub.

BŞTİ-nin tabeliyində fəaliyyət göstərən ümumi təhsil müəssisələrində 29 715 müəllim, məktəbəqədər təhsil müəssisələrində isə 4 137 tərbiyəçi-müəllim çalışır. Qeyd edək ki, BŞTİ-nin tabeliyində 729 təhsil müəssisəsi, 9 məktəbdənkənar müəssisə fəaliyyət göstərir.

## DYP hərəkət iştirakçılarına müraciət edib

Yeni tədris ilinin başlanması ilə bağlı Baş Dövlət Yol Polisi İdarəsi (DYPİ) hərəkət iştirakçılarına müraciət edib. Bildirilib ki, tədris prosesinin başlanması ilə yollarda, xüsusilə səhər və axşam saatlarında hərəkət intensivliyinin artması, məktəb, bağça və digər təhsil müəssisələrinin ətrafında sıxlığın yaranması gözlənilir:

"Belə şəraitdə hər bir hərəkət iştirakçısının daha diqqətli və məsuliyyətli davranması vacibdir. Təhsil müəssisələrinin yaxınlığında sürət əvvəlcədən azaldılmalı, piyada keçidlərinə xüsusi diqqət yetirilməli, avtomobillər ikinci cərgədə, piyada keçidlərinin üzərində və hərəkətə maneə yaradan digər yerlərdə saxlanılmamalıdır".

Qeyd edilib ki, valideynlər uşaqları məktəbə gətirib-apararkən avtomobilləri yalnız təhlükəsiz və icazə verilən yerlərdə saxlamalı, onların nəqliyyat vasitəsindən səki istiqamətində düşüb-minməsinə nəzarət etməlidirlər.

Şagirdlər yolu yalnız müəyyən edilmiş yerlərdən keçməli, dayanmış avtomobillərin arasından qəfil yola çıxmamalı, hərəkət zamanı mobil telefon və qulaqlıq kimi diqqəti yayındıran vasitələrdən istifadə etməməlidirlər.

Unutmayaq ki, valideynlərin yol hərəkətində nümayiş etdirdiyi davranış uşaqlar üçün ən təsirli nümunədir. Övladlarımızdan qaydalara əməl etməyi tələb ediriksə, ilk növbədə bunu öz davranışımızla göstərməliyik.

"Baş Dövlət Yol Polisi İdarəsi hər kəsi yeni tədris ilinin ilk günlərindən yollarda diqqətli, səbirli və məsuliyyətli olmağa çağırır. Məktəbə gedən hər bir uşağın təhlükəsizliyi hamımızın ortaq məsuliyyətidir".



## Məktəb çantası seçimi...

Yeni tədris ilinin başlaması ilə valideynlərin diqqət etməli olduğu məsələlərdən biri də məktəb çantasının düzgün seçilməsi və hazırlanmasıdır. Çanta yalnız kitab-dəftər daşımaq üçün deyil, uşağın gündəlik fiziki rahatlığı və düzgün duruşunun qorunması baxımından da əhəmiyyətlidir.

Azərbaycan Respublikası Təhsil Cəmiyyətinin üzvü, fiziki tərbiyə müəllimi Leyla Məmmədova mediaya açıqlamasında bildirib ki, uşağın çantasının mümkün qədər yüngül olması vacibdir. Ümumi tövsiyə olaraq çantanın çəkisinin uşağın bədən çəkisinin təxminən 10 faizini keçməməsi məqsədəuyğundur. Məsələn, 30 kiloqram çəkisi olan uşağın çantası təxminən 3 kiloqramdan ağır olmamalıdır. Çantada yalnız həmin gün üçün lazım olan kitab, dəftər və digər ləvazimatlar olmalıdır. Uşaqlar bəzən əvvəlki günlərdən qalan kitabları, oyuncaqları, artıq dəftərləri, böyük su qablarını və digər əşyaları da daşıyırlar. Hər axşam dərs cədvəlinə uyğun olaraq çantanı yenidən hazırlamaqla artıq yükü azaltmaq mümkündür. Planşet və digər elektron cihazlar da yalnız lazım olduqda çantaya qoyulmalıdır. Çantanın necə daşınması da onun çəkisi qədər vacibdir. İki çiyin qayışından istifadə edilməli, qayışlar çox boş olmamalı, ağır əşyalar isə bel hissəsinə yaxın yerləşdirilməlidir. Çantanı daim bir çiyində daşımaq düzgün deyil.

"Ağır və düzgün daşınmayan çanta boyun, çiyin və bel nahiyəsində əzələ gərginliyinə və ağrıya, həmçinin düzgün olmayan bədən duruşuna səbəb ola bilər. Ağır çanta təkbaşına skolioza səbəb olmur, lakin mövcud onurğa problemləri zamanı narahatlığı artıra bilər. Uşaqda çiyin və kürək asimmetriyası, davamlı bel ağrısı və ya nəzərəçarpan duruş pozuntusu müşahidə olunarsa, həkim müayinəsindən keçmək tövsiyə edilir. Evdə də uşağın dərs çalışdığı yer düzgün təşkil olunmalıdır. Stol və stul uşağın boyuna uyğun seçilməli, ayaqları yerə rahat dayanmalı, işıqlandırma kifayət qədər olmalıdır. Həmçinin uzun müddət eyni vəziyyətdə oturmağın qarşısını almaq üçün fasilələrlə hərəkət etmək vacibdir. Sağlam məktəb həyatı yalnız dərslərlə deyil, düzgün çanta, düzgün duruş və kifayət qədər hərəkətlə başlayır", - deyə L.Məmmədova əlavə edib.

***Yeganə BAYRAMOVA***

*İdman*

## Azərbaycan komandası Maltada estafet yarışının qalibi olub




Azərbaycan Xüsusi Olimpiya Komitəsinin atletləri Maltada keçirilən "Avropa açıq" üzgüçülük yarışında uğurlu nəticə göstəriblər.

Komitədən AZƏRTAC-a bildirilib ki, Azərbaycan təmsilçiləri 4x50 metr məsafəyə sərbəst üsulla komanda estafetində 3 dəqiqə 14,55 saniyə nəticə ilə birinci olublar.

Atletlər fərdi yarışlarda da mükafatçılar sırasında yer alıblar. Mirqayıb Rəsulov 50 metr məsafəyə "batterflay" və sərbəst üsulla üzmədə gümüş medal qazanıb. Georgi Qoniyev 50 metr arxasıüstə üzmədə ikinci, sərbəst üsulda isə üçüncü olub. Ağasəlim Abdullayev 25 metr brass üsulunda ikinci, 50 metr məsafədə isə dördüncü yeri tutub. Məhəmməd Əli 50 metr arxasıüstə üzmədə üçüncü, sərbəst üsulda isə altıncı olub.

## Boks üzrə Azərbaycan millisinin Avropa çempionatı üçün heyəti açıqlanıb




Boks üzrə Azərbaycan millisinin Bolqarıstanın paytaxtı Sofiyada keçiriləcək Avropa çempionatı üçün heyəti açıqlanıb.

Azərbaycan Boks Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, yığma kişilərin mübarizəsində tam heyətlə çıxış edəcək. Baş məşqçi Ravşan Xocayev, məşqçilər Nəriman Abdullayev, Etibar Abdullayev və Mehman Quliyev çempionatda Sübhan Mamedov (50 kiloqram), Amin Məmmədzadə (55 kiloqram), Məhəmmədəli Aşırəliyev (60 kiloqram), Malik Həsənov (65 kiloqram), Nəbi İsgəndərov (70 kiloqram), Səidcəmşid Cəfərov (75 kiloqram), Murad Allahverdiyev (80 kiloqram), Seyid Seyidov (85 kiloqram), Rauf Rəhimov (90 kiloqram) və Məhəmməd Abdullayevə (+90 kiloqram) şans verəcəklər.

Qadınların yarışında məşqçi Rafiq İsmayılov Zeynəb Rəhimovanı (54 kiloqram) sınayacaq.

Qitə çempionatında hakim qiymətləndiricisi Anar Babanlı isə Azərbaycanın idman şərəfini qoruyacaq.

Qeyd edək ki, sentyabrın 17-dən 25-dək keçiriləcək yarışda 40 ölkədən 400-dən çox boksçunun qüvvəsini sınayacağı gözlənilir.

## Antonelli "Formula 1" üzrə İspaniya Qran-prisinin qalibi olub



"Mercedes"in italiyalı pilotu Kimi Antonelli "Formula 1" üzrə İspaniya Qran-prisinin qalibi olub.

"Report" xəbər verir ki, yarış "Madring" şəhər trasında keçirilib.

Finişə ikinci olaraq "Red Bull"dan niderlandlı Maks Ferstappen çatıb, liderlər üçlüyünü isə "McLaren"dən britaniyalı Lando Norris tamamlayıb.

İspaniya Qran-prisi ilk dəfə Barselonada deyil, Madriddə keçirilib.

Qeyd edək ki, növbəti mərhələ sentyabrın 24-dən 26-dək Bakıda baş tutacaq.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4446
Sifariş: 1212
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova